

MÜSTƏQİLLİYİMİZ ƏBƏDİDİR, DAİMİDİR, DÖNMƏZDİR!

# HƏRBİ AND

№ 15 (1024) 03 may 2024-cü il    Həftəlik ictimai-siyasi qəzet    (Qəzet 15 noyabr 2002-ci ildən nəşr olunur)    Qiymıti: 50 qəpik

## Dövlət Xidməti və Agentlik razılaşma imzaladı




Səh. 4

## XTQ-nin veteran mənsubları ilə görüş keçirilib



Səh. 2

## "Xüsusi təyinatlılar ordunun formalaşması zamanı zərurətdən yaranan qüvvələr idi"



Səh. 5

## Sən mənim yarımçıq qalmış hekayəmsən!



Səh. 7

## Ədalət Verdiyev: "Bu Azərbaycan tərəfinin böyük etirazı ilə qarşılanacaq"



Səh. 11

# Bakıda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu işə başlayıb




**Mayın 1-də Bakı Konqres Mərkəzində "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimi keçirilib.**

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.**

Səh 3

# HDQ-də NATO-nun nümayəndələri ilə görüş keçirilib

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin NATO ilə 2024-cü il üçün Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq Proqramına əsasən, NATO-nun Müttəfiqlərin Avropadakı Baş Qərargahının ekspert qrupunun iştirakı ilə "Hərbi Dəniz Qüvvələrinin (HDQ) döyüş hazırlığının qiymətləndirilməsi kursu"nun koordinasiya görüşü keçirilib.

Görüşdə kursla bağlı qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



Səh. 2

# HDQ-də NATO-nun nümayəndələri ilə görüş keçirilib



**Azərbaycan Respublikası Müdafiə Nazirliyinin NATO ilə 2024-cü il üçün Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq Proqramına əsasən, NATO-nun Müttəfiqlərin Avropadakı Baş Qərargahının ekspert qrupunun iştirakı ilə "Hərbi Dəniz Qüvvələrinin (HDQ) döyüş hazırlığının qiymətləndirilməsi kursu"nun koordinasiya görüşü keçirilib.**

Görüşdə kursla bağlı qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



Bildirilib ki, kursun əsas məqsədi döyüş hazırlığında NATO standartlarını və Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) metodikasını dinləyicilərə tədris etməkdir.

Qeyd edək ki, kursda 30-a yaxın NATO-nun tərəfdaş ölkələrinin iştirakı nəzərdə tutulub.

# Hərbi vəzifəlilərin növbəti təlim toplanışı başlayıb

**Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2024-cü il üçün hazırlıq planına əsasən, hərbi hissələrdə bir qrup hərbi vəzifəlinin cəlb edildiyi növbəti təlim toplanışı başlayıb.**

Ehtiyatdan çağırılan hərbi vəzifəlilər toplanış məntəqəsinin qərargahında müvafiq qeydiyyatdan və həkim müayinəsindən keçdikdən sonra hərbi geyim və digər təminat növləri ilə təmin olunublar.

Toplanış çərçivəsində hərbi vəzifəlilərin döyüş hazırlığı səviyyəsinin artırılması, eləcə də bilik və bacarıqlarının təkmilləşdirilməsi məqsədilə müxtəlif tapşırıqlar yerinə yetiriləcək.



Hərbi vəzifəlilərlə keçirilən təlim toplanışının əsas məqsədi onların döyüş vərdişlərini, hərbi ixtisas və təcrübələrini təkmilləşdirmək, eyni zamanda ordumuzun arsenalında olan müasir silah və hərbi texnikanın istismar qaydalarını öyrətməkdir.

# Tank bölmələri ilə intensiv döyüş hazırlığı məşğələləri keçirilir



**2024-cü ilin hazırlıq planına əsasən, Azərbaycan Ordusunun tank bölmələri ilə intensiv döyüş hazırlığı üzrə məşğələlər keçirilir.**

Ümumqoşun təlim poliqonunda keçirilən məşğələlər zamanı ərazidə təbii və süni maneələrin dəf edilməsi, döyüş maşınlarının idarə olunması, şərti düşmən üzərinə dərinlikdən irəliləməklə hücum üzrə çalışmalar yerinə yetirilib.

Həmçinin zirehli texnikanın üzərinə quraşdırılmış silahdan aşkar olunan hədəflərin yerindən və hərəkətdə məhv edilməsi üzrə qarşıya qoyulan tapşırıqlar da icra olunub.

Hərbi qulluqçuların döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədilə keçirilən məşğələlərdə tankçılarımız yüksək peşəkarlıq nümayiş etdirirlər.



# XTQ-nin veteran mənsubları ilə görüş keçirilib

**Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) yaradılmasının 25-ci ildönümü münasibətilə "N" hərbi hissənin tabeliyində olan birləşmə və hissələrdən ehtiyata və istefaya buraxılmış hərbi qulluqçularla görüş keçirilib.**

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin hərbi hissənin ərazisindəki büstü və torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə yüksələn şəhidlərimizin xatirəsinə ucaldılmış abidə önünə gül dəstələri düzülüb.

Tədbir başlamazdan öncə Ulu Öndərin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov və Xüsusi Təyinatlı Qüvvələr komandanının 25-ci ildönümü münasibətilə təbriki iştirakçılara çatdırılıb.

Çıxış edənlər Aprel döyüşlərində, Vətən müharibəsində, eləcə də digər əməliyyatlarda XTQ-nin əvəzsiz xidmətlərindən danışıblar. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev və Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən xüsusi təyinatlılara göstərilən diqqətə, qayğıya və etimada görə minnətdarlıq ifadə olunub.

Tədbir iştirakçılarına hərbi hissənin yaranma tarixi və keçdiyi şərəfli döyüş yolu haqqında videoçarx təqdim olunub.

Sonda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistlərinin ifasında vətənpərvərliyi tərənnüm edən mahnılar səsləndirilib, xatirə fotosu çəkdirilib.

Təsisçi və Baş redaktor
**Emin HƏSƏNLİ**
Redaktor
**Aytən NAZİMQIZI**
**Ünvan:** AZ1007, Bakı şəhəri, Natiq Şahbazov küçəsi 40
**Telefonlar:** 449-94-05, 449-94-06
**Faks:** 449-94-05
**e-mail:** herbi_and@mail.ru
Qəzet "Hərbi And" qəzetinin bilgisayar mərkəzində yığılıb, səhifələnir və Məmmədov Vüqar Tofiq oğlunun mətbəəsində çap olunur
**Tiraj:** 2070

# Bakıda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu işə başlayıb Prezident İlham Əliyev Forumun açılış mərasimində iştirak edib

## 29 aprel

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da Çin Xalq Respublikasının Xarici ölkələrlə dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri Yan Vanmini qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da Malayziyanın Parlament Senatının prezidenti Datuk Mutanq Taqalı qəbul edib.

## 30 aprel

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da Pakistan İslam Respublikasının MUSLİM İnstitutunun direktoru, Cunaqad Ştatının Baş naziri Sahibzadə Sultan Əhməd Əlini qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da Amerika Birləşmiş Ştatlarının İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin rəhbər heyəti, "On iki Həvari Kvorumu"nun üzvü Deyvid Bednarı, İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin "Yetmiş Həvari Kvorumu"nun üzvü Cek Gerardı, Stirlinq Fondunun prezidenti Mayls Hanseni və Stirlinq Fondunun baş icraçı direktoru Edvard Rounu qəbul edib.

## 1 may

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Türk Dövlətləri Təşkilatına (TDT) üzv və müşahidəçi dövlətlərin müsəlman dini rəhbərlərindən ibarət nümayəndə heyətini qəbul edib.

Nümayəndə heyətinə Özbəkistan Müsəlmanlar İdarəsinin sədri Nuriddin Xaliknazarov, Qazaxıstan Müsəlmanlar İdarəsinin sədri Naurızbay Otpenov, Qırğızıstan Müsəlmanlar İdarəsinin sədri Abdulaziz Zakirov və Şimali Kipr Türk Respublikasının Diyanət İşləri Başkanı Ahmet Unsal daxildir.

Görüşdə VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyətinə toxunuldu, bu tədbirin xalqlar və müxtəlif dinlərin nümayəndələri arasında əlaqələrin möhkəmləndirilməsi işinə böyük töhfə verdiyi bildirildi.

Prezident İlham Əliyev Türkdilli dövlətlər arasında dostluq və qardaşlıq münasibətlərinin uğurla inkişaf etdiyini deyərək, eyni zamanda, bu ölkələrin dini liderləri arasında əməkdaşlığın həyata keçirilməsinin önəmini qeyd etdi və vurğuladı ki, bu əməkdaşlıq ölkələrimiz və xalqlarımız arasında əlaqələrin möhkəmlənməsinə öz töhfəsini verir. Dövlətimizin başçısı qonaqların işğaldan azad olunmuş ərazilərimizə səfərinin önəminə toxunaraq bu səfərin orada gedən proseslərlə yaxından tanış olmaq üçün yaxşı imkan yaradacağını bildirdi.

Prezident İlham Əliyev Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Azərbaycana dövlət səfəri zamanı Füzulidə inşa olunan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin Azərbaycana dövlət səfəri zamanı Füzuli şəhərində inşa olunan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılışını və Qırğız Respublikasının Prezidenti Sadır Japarovun Azərbaycana dövlət səfəri zamanı Ağdamın Xıdırlı kəndində inşa olunacaq tam orta məktəb binasının təməlinin qoyulmasını dostluq və qardaşlıq əlaqələrimizin təzahürü kimi dəyərləndirdi. Eyni zamanda, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatarın ölkəmizə rəsmi səfərini məmnunluqla xatırladı.

Özbəkistan Müsəlmanlar İdarəsinin sədri Nuriddin Xaliknazarov Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin, Şimali Kipr Türk Respublikasının Diyanət İşləri Başkanı Ahmet Unsal isə Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatarın salamlarını dövlətimizin başçısına çatdırdılar.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Şavkat Mirziyoyevə və Ersin Tatara çatdırmağı xahiş etdi.

Azərbaycanda onlara göstərilən qonaqpərvərliyə görə minnətdarlıqlarını bildirən dini liderlər bu Forumun önəmini vurğuladılar, dövlətimizin başçısının Forumda məzmunlu çıxışının onlara dərin təəssürat hissi bağışladığını dedilər. Qonaqlar bu tədbirin türkdilli dövlətlər arasında dostluq və qardaşlıq əlaqələrinə söykənən tarixi, dini, mədəni köklərimizin bir-birinə daha da yaxınlaşmasına xidmət etdiyini vurğuladılar.




Prezident İlham Əliyev işğal dövründə ermənilər tərəfindən tarixi-dini abidələrimizin dağıdıldığını qeyd edərək hazırda həmin ərazilərimizdə aparılan genişmiqyaslı bərpa işləri çərçivəsində yeni məscidlərin inşa edildiyini, dağıdılanların isə bərpa olunduğunu dedi.

Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə Azərbaycanda dini azadlıqların təmin olunması, islami dəyərlərin qorunması işinə dövlət səviyyəsində göstərilən qayğıya, həmçinin işğaldan azad edilmiş torpaqlarımızda tarixi-dini abidələrimizin, məscidlərimizin bərpasına görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi, bu istiqamətdə Heydər Əliyev Fondunun həyata keçirdiyi işləri xüsusi olaraq qeyd etdi, Fondun dini-mədəni sərvətlərimizin qorunmasında oynadığı rolu vurğuladı.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Azərbaycanda dini dəyərlərin qorunmasında Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətlərini dərin ehtiramla yad etdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Rusiya Federasiyası Qaraçay-Çərkəz Respublikasının müftisi İsmayıl Berdiyevin başçılıq etdiyi Rusiya Federasiyası Şimali Qafqaz regionunun müftilərindən ibarət nümayəndə heyətini qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Rusiyanın Baş ravvini Berl Lazarı qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin (KAICIID) Baş katibi Zuhair Əlhartini qəbul edib.

Mayın 1-də Bakı Konqres Mərkəzində "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də İraq Respublikası Parlamentinin sədri Möhsin Əli Əkbər Əl-Mandalavini qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də BMT Baş katibinin Sülhməramlı Əməliyyatlar Departamentində qanunun aliliyi və təhlükəsizlik təsisatları üzrə köməkçisi Aleksandr Zuyevi qəbul edib.

## 2 may

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 2-də BMT Baş katibinin iqlim fəaliyyəti və ədalətli keçid üzrə xüsusi müşaviri Selvin Çarlz Hartı qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 2-də Rusiya Federasiyası Federasiya Şurasının sədr müavini Konstantin Kosaçovu və Dövlət Dumasının MDB işləri, Avrasiya iqtisadiyyatı və həmvətənlərlə əlaqələr komitəsinin sədri Leonid Kalaşnikovu qəbul edib.

# Dövlət Xidməti və Agentlik razılaşma imzaladı



**Artıq ölkənin Şimal bölgəsində ilkin hərbi qeydiyyata alınan və müddətli həqiqi hərbi xidmətə çağırılan, habelə təkrar tibbi şəhadətləndirilməyə cəlb edilən vətəndaşların tibbi müayinəsi regional tibb müəssisəsində - Quba Rayon Mərkəzi Xəstəxanasında (RMX) aparılacaq.**

İlkin hərbi qeydiyyata alınan və hərbi xidmətə çağırılan vətəndaşların tibbi müayinəsinin regional xəstəxanada aparılması ilə bağlı Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) tərəfindən birgə pilot layihənin icrasına başlanılır. Belə ki, 6 may 2024-cü il tarixindən Xidmətin Quba, Qusar, Xaçmaz, Siyəzən və Şabran rayonları üzrə ilkin hərbi qeydiyyata alınan və müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların Quba RMX-də tibbi müayinəsi aparılacaq.

Bu məqsədlə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi Mürsəl İbrahimov və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev razılaşma sənədi imzalayıblar. Layihənin əsas məqsədi tibbi müayinələrin aparılması işinin mərkəzləşdirilməsi, yaxın məsafədə tibbi xidmətin əlçatanlığını və vətəndaş məmnunluğunu təmin etməkdir.

Vətəndaşların qəbulu və əyani olaraq tibbi yoxlamanın aparılması üçün Quba şəhəri, Fətəli Xan küçəsi 42 ünvanında yerləşən Quba RMX-də qəbul və müvafiq otaqlar ayrılıb. Müayinə otaqları bütün lazımi avadanlıqlarla təchiz edilib.

Xəstəxana həftə içi hər gün, saat 9:00-dan 18:00-dək fəaliyyət göstərir. Tibbi baxış zamanı çağırışçılar cərrah, terapevt, nevropatoloq, psixiatr, oftalmoloq, otorinolarinqoloq, stomatoloq, dermatoveneroloq, psixoloq və zərurət olduqda digər ixtisaslardan olan həkim-mütəxəssislər tərəfindən müayinə ediləcəkdir.

Məlumat üçün bildirək ki, müddətli həqiqi hərbi xidmətə çağırılanların, sağlamlıq vəziyyətinə görə hərbi xidmətə çağırışdan möhlət almış vətəndaşların ambulator və ya stasionar tibbi müayinə və müalicəsi icbari tibbi sığorta ilə qarşılanır. Ətraflı məlumat üçün Agentliyin “1542”, TƏBİB-in “815” və Dövlət Xidmətinin “9100” Çağrı mərkəzlərinə müraciət etmək olar.



Əlavə olaraq qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 sentyabr tarixli 2317 nömrəli Fərmanına əsasən 2024-cü il iyulun 1-dən rayon, şəhər, şəhərdə rayon çağırış komissiyaları tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların tibbi şəhadətləndirilməsi zamanı sıradankənar həqiqi hərbi xidmətə yararlılıq, sağlamlıq vəziyyətinə görə həqiqi hərbi xidmətə müvəqqəti yararsız hesab edilməklə çağırışa möhlət verilməsi, dinc dövrdə həqiqi hərbi xidmətə yararsızlıq, müharibə dövründə məhdud yararlılıq və həm dinc dövrdə, həm də müharibə dövründə hərbi xidmətə yararsızlıq haqqında qərarlardan birinin qəbul edilməsi üçün həmin vətəndaşların yekun tibbi müayinəsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən həyata keçiriləcəkdir.

# Mürsəl İbrahimov Qəbələdə vətəndaşların problemlərini dinlədi

**Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) rəisi Mürsəl İbrahimov aprelin 26-da Xidmətin Qəbələ rayon şöbəsinin inzibati binasında Qəbələ, Şəki, Oğuz, Qax, Zaqatala və Balakən şəhər və rayonlarından olan vətəndaşları qəbul edib. Qəbuldan əvvəl ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət edilərək önünə gül dəstəsi qoyulub, əziz xatirəsi ehtiramla yad edilib.**

Qəbulda 21 vətəndaşın müraciəti dinlənilib. Vətəndaşlar SHXÇDX-də həqiqi hərbi xidmətə və ya işə qəbul, övladlarının gələcək müddətli həqiqi hərbi xidmət yerinin müəyyənləşdirilməsi və s. məsələlərlə bağlı müraciət ediblər.

Xidmət rəisi qəbul zamanı hər bir vətəndaşın müraciətini dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb. SHXÇDX-nin səlahiyyətlərinə aid olmayan müraciətlər aidiyyəti qurumlara yönəldilib.



# “Xüsusi təyinatlılar ordunun formalaşması zamanı zərurətdən yaranan qüvvələr idi”

Bu gün Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin (XTQ) yaradılmasından 25 il ötür. Xüsusi Təyinatlı Qüvvələr 1999-cu il aprelin 30-da yaradılıb. Qüvvələrin formalaşmasında Birinci Qarabağ müharibəsi iştirakçısı olmuş zabit və gizirlər iştirak ediblər.

**Ehtiyada olan polkovnik, hərbi ekspert Şair Ramaldanov Herbiand.az-a bildirib ki, Birinci Qarabağ savaşında ordunun tərkib hissələri formalaşmış şəkildə deyildi:**

“Ordu yalnız pərakəndə şəkildə, özünü müdafiə taborları formasında fəaliyyət göstərirdi. Ulu öndərin gəlişindən sonra Azərbaycanda işğalçılara qarşı mütəşəkkil şəkildə mübarizə aparıldı. Nəticədə, düşmən Bişkek sazişi daşıyan atəşkəs rejimini imzaladı. Sonra Azərbaycan ordusunun formalaşması sürətləndi və nizami ordu yarandı. Burada isə müəyyən istiqamətlər inkişaf etməyə başladı. Xüsusi təyinatlı qüvvələr də məhz həmin ordunun formalaşması zamanı zərurətdən yaranan bir qüvvələr idi. Xüsusən, işğal dövründə təmas xəttində dağlıq və meşəlik ərazilər daha çox üstünlük təşkil edirdi. Belə olduğu halda, xırda qrupların fəaliyyəti daha məqsədyönlü idi. Kəşfiyyat aparmaq, hansısa xüsusi tapşırıqlar yerinə yetirmək üçün xüsusi təyinatlı qüvvələr lazım idi. Onlar xüsusi bacarığa malik olmalı və hərtərəfli vəziyyətdə döyüş tapşırığını yerinə yetirməyi bilməliyidilər. Azərbaycanın xüsusi təyinatlıları qısa bir zamanda dünyada olan qabaqcıl xüsusi təyinatlıların təcrübəsini öyrəndilər. Xüsusi təyinatlı qüvvələrinin yaranmasında birinci Qarabağ savaşında təcrübə qazanmış, Əfqanıstan döyüşlərində iştirak etmiş və xüsusi qabiliyyətə malik zabit və digər heyət iştirak edib. Sonra isə dünya təcrübəsindən və qardaş ölkə olan Türkiyənin xüsusi təyinatlılarının hazırlıq proqramları, texniki-tədris bazası və digər proseslər Azərbaycanda inkişaf etməyə başladı. Qısa zamanda demək olar ki, xüsusi təyinatlılar sürətlə inkişaf edərək, xüsusilə öz bacarığını atəşkəs dövründə düşmənin arxasında fəaliyyət göstərməklə getdikcə çoxaldırdılar. Deməzdim ki, hansısa sırf diversiya işləri ilə məşğul idilər. Ancaq düşmənin arxasına keçmək, orada müşahidə aparmaq və digər xüsusi tapşırıqların yerinə yetirilməsində cəlb olunurdular”.

**Ehtiyada olan polkovnik qeyd edib ki, xüsusi təyinatlıların aprel hadisələrində fəaliyyətini real şəkildə gördük:**

“Xüsusi təyinatlılar düşmənin mövqelərini ələ keçirməklə digər qüvvələrin irəliləməsinə və ərazilərin düşməndən azad edilməsinə nail oldular. Xüsusi təyinatlılar çox ciddi formada hazırlıq keçir. Hazırlıqda həm Azərbaycanın bu sahə üzrə mütəxəssisləri, həm də Türkiyədə bu sahədə böyük təcrübəyə malik olanlar cəlb olunurlar. Xüsusi təyinatlıları beynəlxalq tədbirlərdə və yarışlarda da iştirak edirlər. Yarışlardan birində hələ Vətən müharibəsindən öncə Türkiyədə 28 ölkənin iştirakı ilə keçirilən yarışda birincilik qazanmışdılar. Bu da Azərbaycanın xüsusi təyinatlılarının yüksək peşəkarlığından xəbər verir. Xüsusi təyinatlılarımız fərdi təlimlərdən əlavə iri təlimlərdə ssenariyə uyğun olaraq özünəməxsus tapşırıqları yerinə yetirirlər. Xüsusi təyinatlıların peşəkarlığını məhz döyüşlərdə - Azərbaycanın ərazi bütövlüyünün bərpası zamanı gördük. Azərbaycanın əsas taktikası sızma hərəkəti taktikası idi. Məhz xüsusi təyinatlıların professionallığı, onların düzgün istifadəsi, sızma taktikasını həyata keçirməsi bizim təyin olunan istiqamətlərdə irəliləməni sürətləndirərək düşməni daim gərgin vəziyyətdə saxlamağa imkan verirdi. Xüsusi təyinatlılarımız düşmənin arxasında yerləşən atəş vasitələri - raket və artilleriya mövqeləri haqqında dəqiq məlumat verərək Azərbaycanın artilleriya və aviasiyasını həmin hədəflərə yönəldərək darmadağın edilməsinə şərait yaradırdı. Bununla da düşmənin müqaviməti xeyli zəifləyirdi. Bu isə bizim şəxsi heyət arasında itkilərin minimuma gətirilməsi, tapşırığın maksimum sürətlə yerinə yetirilməsinə gətirib çıxartdı”.



**Şair Ramaldanovun sözlərinə görə, İkinci Vətən müharibəsində xüsusi təyinatlılar haqqında danışanda birinci növbədə məhz Şuşa kimi alınmaz qalanın yüngül silahlardan istifadə edilməklə, şəhərin dağılmasının qarşısını almaqla azad edilməsini yüksək peşəkarlıq kimi qiymətləndirə bilərik:**

“Təxminən ona oxşar bir ərazidə təlim keçərək, hər şeyi ölçüb-biçərək yüksək hazırlıq səviyyəsinə gəlmiş xüsusi təyinatlılarımız, nəticədə Şuşanı azad etdilər və düşməni kapitulyasiya aktına bərabər üçtərəfli sənədə qol çəkməyə məcbur etdilər. Sonra xüsusi təyinatlılar artıq qazanılmış döyüş təcrübəsindən irəli gələn təhlillər apararaq, öz hazırlığını daha da zənginləşdirərək peşəkarlığını yeni mərhələyə qaldırmağa nail oldu. Hamının haqlı hörmətini qazanmış və qürur yerimiz olmuş xüsusi təyinatlılar həmişə peşəkarlığı və yüksək ruh yüksəkliyi ilə seçilirlər. Bizim xüsusi təyinatlıların növbəti peşəkar göstəricisi antiterror tədbirlərində oldu. Antiterror tədbirlərində unikal əməliyyat apararaq bir sutkadan da az müddət ərzində düşməni ağ bayraq qaldırmağa məcbur etmək və separatçı rejimin Azərbaycan ərazisində sonunu qoymağında böyük qəhrəmanlıq göstərdilər. Xüsusi təyinatlılarımız sentyabr hadisələri zamanı düşmənin Kəlbəcər istiqamətində təxribatının qarşısını da almağı bacarmışdılar. Onlar atəş dəstəyi ilə kombinə olaraq qısa zamanda düşməndən strateji yüksəklikləri azad edərək Göyçə gölünə qədər böyük bir ərazini nəzarət altına almağa nail oldular. Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin dediyi kimi, xüsusi təyinatıların hərbi hissələrinin sayı qat-qat artırıldı. Xüsusi təyinatlılara demək olar ki, yaxın olan yeni komando hərbi hissələr yarandı. Bu gün də Azərbaycan ordusunun inkişaf etdirilməsi üçün Türkiyə modelinə keçidlə bağlı tapşırıqlar qoyulub. Azərbaycan ordusu bu tapşırıqları müvəffəqiyyətlə yerinə yetirir. Tapşırıqların içində əlbəttə, xüsusi təyinatlıların və komando birliklərinin hazırlığı, şəxsi heyətin və hərbi hissələrin sayının artırılmasını göstərmək olar”.

**Hərbi ekspert vurğulayıb ki, xüsusi təyinatlılarımız bu gün 25 illiyini həm yüksək döyüş təcrübəsi əsasında formalaşan peşəkarlıqla, həm də yüksək ruh yüksəkliyi və gündən-günə artan nailiyyətləri ilə qarşılayırlar:**

“Düşünürəm ki, bütün xalq bizim qürur yerimiz olan xüsusi təyinatlılarımıza böyük hörmət bəsləyərək onların 25-ci ilini təbrik edir və uğurlar diləyirlər. Uğurlar da göz qarşısındadır. Əlbəttə, hələ də sülh müqaviləsi bağlanmayıb. Hələ də müəyyən revanş niyyətli qüvvələr var, hələ də Ermənistan sakitləşə bilmir. Ermənistanın havadarları münaqişənin alovlanmasına cəhd göstərirlər. Belə olduğu şəraitdə, xüsusi təyinatlılarımız peşəkarlığıyla hər zaman Azərbaycan dövlətinin ərazi bütövlüyünü qorumağa və öz üzərinə düşən vəzifəni yerinə yetirməyə daim hazır vəziyyətdədirlər. Eşq olsun Azərbaycanın Xüsusi Təyinatlı Qüvvələrinə!”

*Bəxtiyar CƏFƏRLİ*

# “Əgər küçə ticarəti xaotik formada inkişaf etdirilsə, bunun qarşısını almaq çətin olacaq”

Polis əməkdaşları müəyyən vaxtlarda antisanitar vəziyyət yaradan küçə ticarətinin qarşısının alınması məqsədilə şəhər ərazisində profilaktik tədbirlər həyata keçirirlər.

Bəs paytaxt Bakıda küçə ticarəti ilə bağlı vəziyyət qaneedicidirmi? Küçə ticarəti hansı formada olmalıdır? Ümumiyyətlə, ticarətin bu formasının olması düzgündürmü?

**Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, www.kitabxana.net - Mir Cəlal Paşayev adına Milli Virtual Kitabxana portalının və www.yenimedia.net saytının təsisçisi/baş redaktoru, Prezident təqaüdçüsü, yazıçı-kulturoloq Aydın Xan Əbilov Herbiand.az-a bildirib ki, dünyanın hər yerində, o cümlədən Azərbaycanda küçə ticarəti istənilən vaxt inkişaf edib və çiçəklənən-çiçəklənməyən dövrləri olub:**

“Bəzi vaxtlarda, xüsusən də karantin və epidemiyalar vaxtı küçə ticarətinə qəti qadağa qoyulub. Bəzi vaxtlarda isə insanların kiçik iş yerlərinin yaradılması və ailələrini təmin etməsi üçün dövlətlər, rəsmi qurumlar küçə ticarətinə göz yumublar. Azərbaycanda küçə və meydan ticarəti son illər özünün yeni və daha keyfiyyətli mərhələsini yaşamağa başlayıb. Əvvəllər, “talkuçka” adı altında müxtəlif meydanlarda, dəmir yolu vağzalı, avtovağzal, eyni zamanda metro stansiyaları ətrafında antisanitarik formada meyvə-tərəvəz, paltar, hətta qida məhsullarının satışı ilə məşğul olan küçə ticarətçiləri paytaxtda və respublikanın müxtəlif yerlərində epidemioloji vəziyyətin ağırlaşmasına səbəb olurdular. Küçə ticarətindən nə isə alan, xüsusən qida məhsulları alan şəxslər özləri və ailə üzvlərinin, yaxınlarının sağlamlığını ciddi təhlükə altına alırdılar. Eyni zamanda, onların zəhərlənməsi ilə bağlı böyük problemlər yaranırdı. Bu problemləri aradan qaldırmaq üçün dövlət qurumları, hüquq mühafizə orqanları, xəstəxanalar istəmədən və qeyri-iradi olaraq bu insanlarla məşğul olmağa məcbur olurdular. Amma küçə ticarəti son vaxtlar daha çox turizmin inkişafına, kreativ sənayenin bir hissəsinə çevrilib. Suvenir sənayesində Azərbaycanda xaricdən gətirilmiş hədiyyələrin satışı, qismən meyvə-tərəvəz, o cümlədən də kiçik gül, çiçək və yaxud dəmləmək üçün müxtəlif kəklikotu, itburnu kimi az xarab olan, uzun saxlanma müddəti olan bir çox qida və qeyri-qida məhsulları satılır. Bununla əlaqədar əlbəttə ki, dövlətin normativ aktları var”.

**Yazıçı-kulturoloqun sözlərinə görə istənilən halda, əgər siz küçə ticarəti və yaxud hər hansı bir yerdə işləyirsinizsə pensiya fonduna, işsizlik, sığorta fonduna, icbari tibbi sığorta fonduna müəyyən ödənişlər etməlisiniz:**

“Əlbəttə, əgər bu şəxsin qazancı minimal əmək haqqından aşağıdırsa ondan çox az miqdarda, yox əgər çoxdursa lazımi qaydada vergilər alınır. Bununla yanaşı hüquq mühafizə orqanları, polislər, xüsusən də sahə müvəkkilləri küçə ticarətinə, ümumiyyətlə qeyri-qanuni alverə qarşı ciddi mübarizələr də aparır. Çünki bu mübarizələrin əsas məqsədi məhz antisanitar vəziyyət yaradan və bir çox dəllalların qarşısını almaqdır. Bəzən baxırsan ki, çox gənc yaşında insan inşaatda, sənayenin müxtəlif sahələrində, fiziki əmək tələb edən yerlərdə və yaxud kənd təsərrüfatında işləyə bilər. Lakin həmin şəxslər asan qazanc yoluna düşür və bir yerdən aldıqları meyvə tərəvəzi gətirib metro stansiyalarının qarşısında satmaqla tez qazanc mənafeyinə xidmət edən işlərlə məşğul olurlar. Bu insanlara qarşı mübarizə aparmaq lazımdır. Amma yaşlı adamlar, qadınlar və yaxud çoxuşaqlı ailələr var ki, onları müəyyənləşdirmək çətin olsa da, hər halda istər-istəməz müəyyən yerlərdə, “jek”də aldıqları arayış nəticəsində bunların küçə alveri ilə məşğul olmasına qarşı ağır sanksiyaların tərəfdarı deyilik. Yenə də qeyd edirik: əgər hansısa bir insan öz evində əl işini hazırlayıb suvenir formasında satmağa çıxarırsa bunun üçün böyük bir müəssisə açmağa ehtiyac yoxdur. Böyük mağaza və ya hansısa yer icarəyə götürmək imkanı yoxdursa, həmin adamın küçədə hansısa ticarətlə məşğul olmasına göz yummaq və yaxud icazə vermək olar. Çünki bunların özü də paytaxtı gözəlləşdirir. Bəzən görürük ki, yeniyetmələr öz ailələrinə kömək etmək üçün hər hansı bir işdən yapışırsa, xüsusən də küçə ticarəti, səyyar musiqiçilik, qida daşınmasında velosipeddən istifadə edirlərsə bunlara qarşı sərtlik olmaz. Çünki bu insanların imkanları olsaydı daha yaxşı yerdə işləyərdilər və ailələrini dolandırardılar”.

**Ekspert bir məsələni də xüsusi vurğulayıb ki, küçə ticarəti ilə küçə ticarəti formalarından istifadə edən dilənçiləri fərqləndirməliyik:**

“Bəzən görürsünüz ki, dilənçiliklə məşğul olan və yaxud insanlardan pul istəyən sosial tənbəllər var ki, hər hansı bir qələm və yaxud salfet götürüb maşınlara yaxınlaşırlar. İstər-istəməz yol hərəkəti qaydalarını pozur, nəqliyyatın normal gedişatına mane olur, küçələrdə insanlardan pul dilənirlər. Bunlara qarşı hüquq-mühafizə orqanlarının hansısa addımını dəstəkləmək lazımdır. Digər tərəfdən metro ətrafında, bazarların ətrafında, xüsusən də bir çox insanların kompakt halında istifadə etdiyi yerlərdə küçə ticarəti ilə məşğul olan, az qala ərzaq növlərinin bütün məhsullarını satan şəxslər var ki, insanların sağlamlığına, ümumiyyətlə ölkədə epidemioloji vəziyyətə



çox təsir edirlər. Bir də görürsünüz ki, çay içir və ora atırlar, yedikləri qida məhsullarının çürümüş hissələrini küçələrə atırlar və bu da şəhərimizin gözəlliyinə xələl gətirir. Bildiyimiz kimi, Bakı bu il keçiriləcək COP29 beynəxalq tədbirinə hazırlaşır. Dünyanın bütün ölkələrindən 80 mindən çox insan Bakıya gələcək. Bu bizim üçün həm də Bakını turizm və kreativ mədəniyyətin, eyni zamanda müxtəlif dinlərin, mədəniyyətlərin, qitələrin birləşdiyi bir məkan olaraq dünyaya çıxarmaq üçün böyük bir şansımızdır. Əgər bu şans ərəfəsində küçələrimizi çirkli etsək, insanlarımız mədəniyyətsizcəsinə qışqırsalar, küçə ticarəti xaotik formada inkişaf etdirilsə bunun qarşısını almaq çətin olacaq. Çünki hüquq mühafizə orqanları və yaxud könüllülərimiz, dövlət qurumlarımız həmin 80 min qonaqla məşğul olacaqlar. Onların dilənçiliklə, qeyri-qanuni küçə ticarəti ilə mübarizə aparmağa sadəcə vaxtları olmayacaq. Üstəlik, deyilənlərə görə, bu il həm parlament, həm də bələdiyyə seçkiləri keçiriləcək. Bura ölkə daxilində baş verən mədəni hadisələri, Formula 1 kimi qlobal idman yarışlarını və digərlərini daxil etsək onda çox böyük mürəkkəb bir hadisə olacaq. Bakının dünyanın mərkəzində olduğu bir vaxtda, bu qədər supermarketlər, mağazalar və köşklərin yayıldığı bir vaxtda küçədə durub alverxana açmaq əlbəttə ki, olmaz. Həmin insanlar üçün şərait yaratmaq, müxtəlif yerlərdə kiçik kənd təsərrüfatı yarmarkaları açmaq lazımdır. Onların ticarət və iş yerlərinin yaradılması ilə bağlı hökumətin xüsusi bir proqramı olmalıdır ki, narazı olmasınlar”.

**Aydın Xan Əbilov sonda bir məsələyə də xüsusi toxunub:**

“Küçə ticarətinin bir hissəsi bizim dönərxanalar və köşklərimizdir. Hansı qurumlar həmin köşklərdə və dönərxanalarda ayaqyolunun, əl yumaq üçün xüsusi mayelərin olması, insanların ümumiyyətlə tualet ehtiyaclarının ödənməsi üçün hansısa imkanların yaradılmasını bizə deyə bilərlər? Heç biri. Bax, bu məsələyə də xüsusi toxunmaq lazımdır. Təsəvvür edin ki, orda-burda tualetə gedən və əlini yumayan küçə ticarətçisi və ya dönər satanın gəlib sonra bizə qida məhsulunu satması görün nə qədər həyatımızda böyük təhlükələr yaratmış olur. İstənilən halda bu məsələ xüsusi tənzimlənməli və dövlət qurumlarının tələbləri mütləq yerinə yetirilməlidir. Amma öz ailələrinə çörək pulu aparan sadə insanların, əhalimizin də mənafeyi qorunmalıdır. Bununla əlaqədar yəqin ki, dövlətin xüsusi bir addımı olacaq. Bu addım hər iki tərəfi razı salar”.

***Bəxtiyar CƏFƏRLİ***

# Sən mənim yarımçıq qalmış hekayəmsən!

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Layihə çərçivəsində

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin dəstəyilə "Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi" istiqaməti üzrə layihə çərçivəsində hazırlanıb.**

*İllər ötüb keçir, zaman dəyişir. Bu zaman kəsiyində baş verən hadisələr tarixə dönür. Bəzi olaylar var ki, yaddan çıxır. Tarixin qaranlıq bir küncündə heç bir zaman vərəqlənməyərək qalır. Elə hadisələr də var ki, yaddaşlardan silinməyərək qəlblərdə əbədi məskən salır. Xoş xatirələrlə xatırlanıb, böyük ehtiram hissilə yad edilir.*

*Unudulmayan, hər an əvəzolunmaz xatirələrilə qəlbimizin dərinliyində böyük sevgilə anılan, öz qanları ilə dastan yazıb, torpaq uğrunda canlarından keçib, hər birimizin doğmasına çevrilmiş qəhrəmanlar şəhadətə ucalan vətənpərvər oğullarımızdır.*

*Ən uca zirvəni fəth edən cəsur oğullarımız həm kədərimiz, həm nisgilimizdir. Amma eyni zamanda qürurumuz, fəxrimizdirlər. Vətənpərvər, igid oğullarımız arasında adını əbədiyyətə yazdıran qəhrəmanlar sırasında onun da adı var.*

Gizir Mütəllimov Qəzənfər Ədalət oğlu. Qəhrəmanım 1992-ci il yanvarın 27-də Sumqayıt şəhərində anadan olub. 1999-2008-ci illərdə Sumqayıt şəhər Hacı Zeynalabdin Tağıyev qəsəbəsinin 6 nömrəli məktəbində, 2008-2011-ci illərdə Abşeron rayon Ceyranbatan qəsəbəsi 147 saylı peşə liseyində təhsil alıb. 2011-ci il aprelin 25-də SHXÇDX Sumqayıt şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. 2011-ci ilin aprel ayından 2012-ci ilin oktyabr ayına qədər N hərbi hissəsində müddətli həqiqi hərbi xidmətin hərbi qulluqçusu kimi, manqa komandiri vəzifəsində xidmət edib. 2013-cü ilin aprel ayında Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin Təlim-Tədris Mərkəzində müddətdən artıq həqiqi hərbi xidmətin hərbi qulluqçusu kursunu "Manqa komandiri" ixtisası üzrə bitirib və 2015-ci ilin dekabr ayına qədər N hərbi hissəsində manqa komandiri vəzifəsində xidmət edib. 2015-ci ilin yanvar ayından 2015-ci ilin mart ayınadək N hərbi hissəsində xüsusi təyinatlı taborun xüsusi təyinatlı kəşfiyyatçısı, 2015-ci ilin mart ayından 2018-ci ilin dekabr ayınadək N hərbi hissəsində kəşfiyyatçı, 2018-ci ilin dekabr ayından N hərbi hissəsində maddi texniki təminat bölüyünün təmir taqımında manqa komandiri vəzifəsində işləyib. 2020-ci il oktyabrın 5-i Cəbrayılda 8 nəfər döyüş yoldaşı ilə birgə şəhid olub. "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi", "Azərbaycan Ordusunun 100 illiyi", ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif olunub.

Bu Qəzənfərin qısa olsa da şərəflə yaşadığı ömür yoluna baxış idi. Çox mərd, vətənpərvər, vətənin müdafiəsini hər zaman öndə tutan cəsur Azərbaycan vətəndaşı olub Qəzənfər Mütəllimov. Yaxınlarının, doğmalarının, onu tanıyanların yaddaşında belə qalıb igid döyüşçümüz.

**Həyat yoldaşı Zöhrə xanıma Qəzənfərlə bağlı xatirələrindən danışmaq çox çətin idi:**

"Qəzənfər çox ailəcanlı, mehriban, qəlbi təmiz, zarafatcıl, xoşxasiyyət bir insan idi. Taleyimi Qəzənfər kimi birisi ilə birləşdirdiyi üçün hər gün Allahıma şükür edirdim. Kaş ki, birgə günlərimiz daha çox olardı Qəzənfərlə. Çox zarafatcıl, dürüst, qəlbi təmiz, köməyə ehtiyacı olana əl tutan, xeyirxah insan idi Qəzənfər".

**Zöhrə xanım deyir, insanlığa xas olan xüsusiyyətlərin hamısı Qəzənfərdə cəmləşmişdi:**

"Bu xüsusiyyətlərə görə hamı onu sevər, ona hörmətlə yanaşardı. Ailəsini həmişə öz halal zəhməti ilə dolandırardı. Onun ömür yolu qısa olsa da, şərəflidir. Şərəflə yaşadı və şərəflə də bu dünyadan köçdü. Balalarının qəhrəman atasıdır Qəzənfər. Belə bir ataları olduğu üçün qızlarım hər zaman qürurlu, alnıaçıq və məğrur olacaqlar".

**Aprel döyüşləri başlayanda Qəzənfər Talış kəndi istiqamətində vuruşur:**

"Bir neçə gün ondan xəbər çıxmamışdı. Hamı elə bilmişdi ki, şəhid olub. Döyüşdən 4 gün sonra 4 nəfər döyüş yoldaşı ilə birgə, hərəsinin də çiynində bir yaralı, mühasirəni yarıb keçmişdilər".

2020-ci il avqustun 29-u idi. Qəzənfər təlimlərdən sonra evə gəlir. Ailəsindən müharibəyə gedəcəyini gizlədir və sentyabrda yenə təlimlərin başlayacağını deyir. Zöhrə xanım bundan narahat olur. Sanki ürəyinə nəsə damır:

"Dedim: "Bu il nə çox təlim keçirirlər sizinlə. Təzə gəlmisən evə". "Hər şey yaxşı olacaq" - dedi - "Oktyabrda məzuniyyətə çıxacağam". Sentyabrın 25-i müharibəyə yola düşdüyünü məndən gizlətdi: "Beyləqana təlimə gedirəm". Səhər telefonun zəngli saatı çalındı. "Zöhrə, yola sal məni" - deyə məni oyatdı. Onu yola salanda elə bilirdim təlimə gedir. Evə dönəcək. Tez-tez təlimlərə gedirdi, artıq alışmşdım. Nə biləydim ki, bu dəfə təlim adı ilə müharibəyə yola düşür".

**Zöhrə xanım ömür-gün yoldaşını son dəfə gördüyünü həmin an ağlına belə gətirməmişdi. Deyir, bilsəydim, yarımçıq qalmış suallarıma cavab istərdim ondan:**



"Qəzənfərin döyüş yoldaşları onun qəhrəmanlığından, müharibədə göstərdiyi şücaətindən, igidliyindən danışırlar həmişə. Gözündə qorxu yox idi deyirlər. Çevikliyinə, göstərdiyi igidliklərinə görə Qəzənfəri "Pələng" deyə çağırarmışlar. Qəzənfər öz döyüşçü yoldaşlarına "qardaş" deyərdi və bu sözünə görə hətta töhmət də almışdı. Yüksək rütbəli zabitlə sözləşmişdi ki, döyüş yoldaşlarım mənim qardaşlarımdır, mən onlari rütbə ilə deyil, "qardaş" deyərək çağıracağam".

**Qəzənfər Mütəllimov bölüyün pulemyot-manqa komandiri olub:**

"Tabor komandiri bəzi xüsusi xidmətləri ona həvalə edərdi. Döyüş dostlarının dediyinə görə, bütün taborda adla tanınırdı. Hörmətini kişiliyi ilə qazanmışdı. Zəifi əzən insan deyildi, hətta təkbaşına 157 kq ağırlığı olan DŞK pulemyotunu çiyninə ala bilirdi. Vətən müharibəsində nə qədər canlar xilas edib, neçə-neçə döyüş yoldaşlarını ağır vəziyyətdə ölümdən qurtarıb. Qəzənfər həm Aprel döyüşlərində, həm də Vətən müharibəsində düşmənin çoxlu sayda texnikasını və canlı qüvvəsini məhv edib. Deyirlər, düşmən Qəzənfərin başına pul mükafatı qoyubmuş".



"Bilsəydim, qapının acarını gizlədərdim. Yola düşürdü, qapının ağzında dayandı. Diqqətlə üzümə baxdı. Baxışlarında nigarançılıq var idi. Pilləkənləri düşəndə su atdım arxasınca. Dedim: "Sağ-salamat get, gəl". Bu sözlərimi eşidib başını qaldırdı, üzümə baxdı. Heç nə demədi, başını yellədi, sual dolu baxışlarla mənə baxıb getdi...".

**Qəzənfər mehribanlığı, dürüstlüyü, mərdliyi ilə döyüş yoldaşlarının sevgisini qazanan qəhrəmanlarımızdan olub:**

***Ardı var...***

***Elnurə İSAXAN***

# Hüquqi dövlət quruculuğunda Ulu Öndər Heydər Əliyevin böyük rolu vardır



*"Azərbaycan Respublikasında demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir"*

*"Biz azadıq, biz müstəqilik, biz sərbəstik, biz heç kəsdən asılı deyilik, biz özümüz öz taleyimizin sahibiyik. Bilirsiniz bunun üçün, yalnız bunun üçün aylarla əziyyət çəkmək olar, illərlə əziyyət çəkmək olar, illərlə ac qalmaq olar. Məhz bunun üçün. Çünki, əsrlər boyu bizim ulu babalarımızdan indiyə qədər Azərbaycanın mütəfəkkir insanları milli azadlıq, müstəqillik arzusu ilə yaşamışlar. Milli azadlıq, müstəqillik üçün mübarizə aparmışlar, vuruşmuşlar. Amma buna nail ola bilməmişlər. Biz buna nail olmuşuq. Və bilin ki, bunu indi ətimizdə saxlamaq, bunu qorumaq hər bir insanın canından da onun üçün artıqdır. Mənim üçün, bunu bilin, mən sizə deyirəm: Öz həyatından, öz canımdan artıq Azərbaycanın müstəqilliyini qorumaq, onu saxlamaq, onu əbədi etməkdir."*

***Heydər ƏLİYEV***
***Azərbaycan Respublikasının Ümummilli Lideri***

Çoxəsrlik dövlətçilik ənənələrinə malik olan xalqımızın tarixində müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, dahi azərbaycanlı, ulu öndər Heydər Əliyevin şəxsiyyəti, onun siyasi və idarəçilik fəaliyyəti müstəsna yer tutur. Xalqımız tarix boyu arzuladığı milli dövlətçilik amallarını məhz Heydər Əliyev epoxasında gerçəkləşdirərək dayanıqlı müstəqil Azərbaycan dövlətini qura bilmişdir. Ulu Öndərimiz Azərbaycanda hakimiyyətə gəldikdən sonra ölkədə hüquqi dövlət quruculuğu sahəsində ardıcıl, sistemli və gələcəyə hesablanan islahatlara start verildi. Azərbaycanın bu gün dünyada müstəqil, hüquqi və demokratik dövlət kimi tanınması, ölkə vətəndaşlarının hüquqlarının, azadlıqlarının təmin edilməsi, müdafiə olunması məhz Ümummilli Liderin adı ilə bağlıdır. H.Əliyevin Azərbaycanın müstəqil dövlət kimi möhkəmlənməsi və demokratik inkişaf yolu ilə inamla irəliləməsi üçün gördüyü işlər barədə çox fikirlər səsləndirilsə də, gənc nəslin onun fəaliyyətinə dair mütəmadi biliklər əldə etməsi bugünkü zamanımızın tələbidir. Çünki Azərbaycan məhz müstəqil dövlətimizin qurucusunun qoyduğu yolla prezident İlham Əliyevin rəhbərliyi altında inamla irəliləyir, ardıcıl uğurlar qazanır.

Ölkədə cərəyan edən hadisələri dərindən təhlil edən Heydər Əliyev yaxşı dərk edirdi ki, Azərbaycanın müstəqilliyini təmin etmək, onu möhkəmləndirmək, ölkədə demokratik-hüquqi dövlət qurmaq, köklü islahatlar aparmaq üçün, ilk növbədə, ictimai-siyasi sabitlik, qanunçuluq, hüquq qaydası təmin edilməlidir. "Dövlət - dövlətçiliyi qorumalıdır" fikrini dönə-dönə vurğulayan Heydər Əliyev çox qəti və prinsipial mövqedən çıxış edərək ciddi intizam, tələbkarlıq və dövlət mənafeyi kimi amilləri ön plana çəkdi. Ölkədə geniş vüsət almış cinayətkarlığın bütün ünsürlərinə qarşı qəti mübarizə aparmaq üçün 1994-cü ildə imzaladığı xüsusi fərman qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsində əsaslı dönüş yaratdı. Eyni zamanda, milli dövlətçiliyin inkişafında korrupsiyanın aradan qaldırılmasının əhəmiyyəti nəzərə alınaraq bu ümumbəşəri sosial bəla ilə mübarizəyə başlanıldı. Hüquq-mühafizə orqanları tərəfindən müvəffəqiyyətlə həyata keçirilən qəti tədbirlər nəticəsində cəmiyyətdə hökm sürən hərc-mərcliyə və özbaşınalığa birdəfəlik son qoyuldu. Müstəqilliyin qorunmasının onun əldə edilməsindən qat-qat çətin olduğunu deyən dahi rəhbər Heydər Əliyev bu ağır vəzifənin öhdəsindən layiqincə gəldi.

Ulu öndər Heydər Əliyevin idarəçiliyində humanizm prinsiplərinin prioritet istiqamət təşkil etməsi, insan hüquq və azadlıqlarının reallaşdırılması və yüksək səviyyədə müdafiəsinə hər cür şərait yaradılması dünyanın siyasi səhnəsinə artıq müstəqil dövlət kimi qədəm qoyan Azərbaycan dövlətçiliyinin mahiyyətində dayanan əsas məqamlardan birini təşkil edib. Beləliklə, həm də mütərəqqi demokratik ideyalara sadiq olan Ümummilli Liderin rəhbərliyi ilə Azərbaycanda dünyəvi, hüquqi, demokratik dövlət quruculuğu başlanıb, bunun üçün daim təkmilləşdirilən möhkəm hüquqi baza formalaşdırılıb. Bu məqsədlə zamanın tələblərinə cavab verən genişmiqyaslı hüquqi islahatların reallaşdırılmasına həmişə Ulu Öndərin rəhbərliyi altında xüsusi diqqət yetirilib, yerli qanunvericilik bazası qabaqcıl beynəlxalq təcrübəyə müvafiq olaraq daha təkmilləşdirilərək mükəmməl formaya salınıb. Ölkəmizdə həyata keçirilən hüquqi islahatlara tarixi prizmadan nəzər salsaq, görərik ki, müasir hüquq sisteminin keçdiyi inkişaf yolunun ilkin mərhələsində azad cəmiyyətin formalaşmasına, demokratik, hüquqi dövlət quruculuğuna, qanunun aliliyinin təmin olunmasına, müstəqil ədalət mühakiməsinin həyata keçirilməsinə yönəlmiş hüquqi islahatların konsepsiyası işlənib hazırlandı. Gərgin fəaliyyət nəticəsində "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Prokurorluq haqqında", "Polis haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında" və hüquq sisteminin mahiyyətini müəyyən edən digər qanun və bütün əsas məcəllələrin layihələri hazırlandı və nüfuzlu beynəlxalq qurumlarda ciddi ekspertizadan sonra qəbul edildi.

Qanunçuluğu və hüquq qaydalarını qətiyyətlə qoruyan prokurorluq orqanları dövlətin etibarlı dayaqlarından biridir. Prokurorluq vətəndaşların konstitusiya hüquq və azadlıqlarının real təminatı kimi dövlət və cəmiyyət həyatının bütün sahələrində qanunçuluğun bərqərar olmasında fəal rol oynayır. Prokurorluq haqqın, ədalətin keşikçisi kimi dövlətin adından çıxış etməklə və cəmiyyətin mənafeyini qorumaqla əhalinin yüksək etimadını qazanıb. Ümummilli Liderimizin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev prokurorluq orqanları haqqında fikirlərinizi belə ifadə edib: "Bütün sahələrdə olduğu kimi, prokurorluq orqanlarında da daha genişmiqyaslı islahatlara ehtiyac var. Bu gün Azərbaycanın hər sahəsində islahatların nəticələri vətəndaşlar tərəfindən yüksək qiymətləndirilir. İslahatlar yeniləşmə, yeni yanaşma, müasir şəraitə uyğunlaşma deməkdir. Biz islahatlar aparmaqla ölkəmizi gücləndiririk və ölkəmizin gələcək dayanıqlı inkişafını şərtləndiririk. Tərəqqi islahatlarsız mümkün deyil. Ona görə hüquq mühafizə orqanlarında da digər sahələrdə olduğu kimi, islahatlara böyük ehtiyac var. ümid edirəm ki, Azərbaycan Respublikasının Prokurorluğu bu islahatların aparılmasında uğurlar qazanacaq".

Prokurorluq orqanları indiki səviyyədə formalaşanadək bəzən ciddi çətinliklərlə müşayiət olunan inkişaf yolu keçmişdir. Bütün hallarda bu orqanlardakı sağlam əqidəli, milli dövlətçiliyə sadiq vətənpərvər qüvvələr xalqımızın maraq və mənafelərini qorumuş, ictimai asayişin qorunmasına, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsinə, cinayətkarlığa qarşı mübarizə işinə öz layiqli töhfələrini verə bilmişlər. Azərbaycan prokurorluğunun hər kəsin qanun qarşısında hüquq bərabərliyi, fiziki şəxslərin hüquq və azadlıqlarına, hüquqi şəxslərin hüquqlarına əməl və hörmət edilməsi, obyektivlik, qərəzsizlik və faktlara əsaslanma, vahidlik və mərkəzləşdirmə, siyasi bitərəflik prinsipləri ilə fəaliyyət göstərməklə beynəlxalq standartlara uyğun və milli maraqlara uyğun dövlət təsisatı kimi formalaşması ulu öndər Heydər Əliyev və onun siyasi kursunun layiqli varisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən ardıcıl və məqsədyönlü islahatlar nəticəsində mümkün olmuşdur.

Bu gün biz Ümummilli Liderimizin bizə miras qoyduğu hüquqi, dünyəvi və demokratik Azərbaycan dövlətinin daha da güclənməsi üçün bir vətəndaş olaraq əlimizdən gələni etməli, insan hüquq və azadlıqlarının təminatı, müdafiəsi sahəsində dövlətin həyata keçirdiyi siyasətə dəstək nümayiş etdirməliyik.

***Elnur NOVRUZZADƏ***
***Azərbaycan Respublikasının Hərbi Prokurorluğunun Hərbi təsisatlarda qanun pozuntuları barədə məlumatların araşdırılması şöbəsinin prokuroru, ədliyyə kapitanı***

# Natiqlik sənətinin Heydər Əliyev zirvəsi



Natiqlik sənətinin tarixinin min illər öncəyə, antik dövrə, Siseron və digər mütəfəkkirlərə dayandığı məlumdur. Bu, unikal bir sənət, ilahi vergi kimi təkcə şəxsiyyətin deyil, bütöv bir xalqın, onun dilinin və milli kimliyinin inşasında vacib element kimi ortaya çıxır. Məqalə müəllifinin müvafiq olaraq 2007 və 2014-cü illərdə işıq üzü görən "Nitq mədəniyyəti" kitablarında da qeyd olunduğu kimi, böyük şəxsiyyətlər, xüsusilə siyasətçi və diplomatlar, dövlət başçıları, xalqı öz ardınca aparan liderlər üçün natiqlik olduqca vacib keyfiyyətdir (Eynəddin Məmmədov, A.Həsənova. Nitq mədəniyyəti, Bakı, 2014. 152 s.) . Bu baxımdan dünyaşöhrətli siyasi xadim, böyük cəsarət və siyasi iradə, fenomenal yaddaş sahibi, səlis və axıcı nitqi ilə könülləri fəth etmiş Ulu Öndər Heydər Əliyevin natiqlik məharəti xüsusilə diqqətəlayiqdir. Ümummilli Liderin idarəçilik fəlsəfəsi və irsinin öyrənilməsinin yolu həm də onun yüzlərlə cild kitablara sığmayan böyük nitq külliyyatının diqqətlə izlənməsindən keçir.

Bu fikirlər Qərbi Azərbaycan İcması Ağsaqqallar Birliyi sədrinin müavini professor Eynəddin Məmmədovun "Natiqlik sənətinin Heydər Əliyev zirvəsi" sərlövhəli məqaləsində yer alıb.

Azərtac <https://azertag.az/> məqaləni təqdim edir: "Heydər Əliyev Azərbaycan tarixində dövlətçilik fikri və idarəetmə təfəkkürünün təcrübə müstəvisinə keçməsində əvəzsiz rolu olan lider kimi yer almaqla bərabər, nitq mədəniyyətimizin nadir nümunələrini yaratmış şəxsiyyət kimi qalmışdır.

Onun natiqlik məharəti özündə bir sıra vacib elementləri birləşdirir. Sistemli, ardıcıl, məntiqli və axıcı məzmunu ilə qətiyyətli və inandırıcı xarakter daşıyan Heydər Əliyev nitqi, həm də ana dilimizin zəngin ədəbi-bədii xüsusiyyətlərini özündə ehtiva edirdi. Uzun illər SSRİ kimi qlobal aktorun rusdilli rəhbər strukturlarında fəaliyyət göstərməsinə baxmayaraq, Azərbaycan dilinin bütün incəliklərini, məziyyətlərini qoruyub saxlaması və daha da inkişaf etdirməsi onun şəxsiyyətinin ucalığını və bütövlüyünü göstərir.

"Hər bir xalq öz dili ilə yaranır. Ancaq xalqının dilini yaşatmaq, inkişaf etdirmək və dünya səviyyəsinə qaldırmaq, xalqın qabaqcıl adamlarının, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur... Xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir... Azərbaycan dili Azərbaycan xalqının milli sərvətidir", - deyən Ulu Öndər Heydər Əliyev bu fikirləri səsləndirəndə sanki öz tarixi missiyasının tərifini verir, onun konturlarını bəyan edir, ağır keçid dövründə dilimizin rolu və əhəmiyyətinə xüsusi eyham vururdu.

**Natiqlik şərəfi**

Şəxsi nümunəsində Heydər Əliyev misli-bərabəri olmayan natiqlik istedadı ilə natiqlik sənətinin ən böyük salnamələrindən birini yaratmışdır. Məşhur publisist H.B.Zərdabi "insanın şərəfinin bir dəlili də onun nitqidir" deyirdi. Ümummilli Lider uzunmüddətli siyasi fəaliyyəti dövründə bu şərəfi ən yüksək səviyyədə daşımış və gələcək nəsillərə əvəzsiz miras buraxmışdır.

Məlumdur ki, onun 1993-cü ilin iyun ayında respublika rəhbərliyinə qayıdışı Azərbaycanın tarixində yeni bir dövrün başlanğıcını qoydu. Daxili və xarici siyasətdə haqlı, gərgin mübarizəsi, xalqı birliyə, azadlıq, müstəqillik uğrunda mübarizəyə çağıran məzmunlu çıxışları, bəyanatları, verdiyi müsahibələr böyük şəxsiyyətin xarakterinin geniş kütlələr üçün açılmasına da imkanlar yaratdı.

Heydər Əliyev irsini araşdıran tədqiqatçıların ortaq fikri ondan ibarətdir ki, onun natiqlik məharəti özündə həm Şərq, həm də Qərb natiqlik məktəblərinin elementlərini birləşdirir. Öz məntiqinin ardıcıllığına, inandırıcılığına və nitqinin əzəmətinə görə Azərbaycan nitq mədəniyyətinin tarixində onunla müqayisə ediləcək ikinci bir şəxsiyyət olmamışdır.

Ulu Öndərin təkrarolunmaz natiqliyi onun bir insan kimi fərdi, fitri istedadı, daim öz üzərində işləməsi, ətrafında, dünyada baş verən hadisələrə, onların səbəblərinə, nəticələrinə maraq göstərməsi və diqqətcilliyi, həmçinin dərindən yiyələndiyi ana dilinə məhəbbəti, bu dildən mənəvi zövq duyması, böyük ilham alması ilə bilavasitə bağlı idi. Bununla yanaşı, mənsub olduğu xalqı ürəkdən sevməsi, onun tarixini, mentalitetini, mədəniyyətini dərindən bilməsi və bütün bunların ən mükəmməl səviyyədə daşıyıcısı olması, habelə, mürəkkəb tarixi dövrdə, müstəqil dövlət quruculuğu mərhələsində millət, xalq, milli dövlətçilik üçün hamıdan artıq məsuliyyət duyması, bunun üçün əsaslandırılmış, böyük mübarizəyə girməsi böyük şəxsiyyətin nitqlərində ana xətt kimi keçirdi.

Məsələn, 1993-cü ildə Azərbaycan Milli Məclisindəki ilk tarixi çıxışında, deputatlara və xalqa səslənişində, dövlətə və dövlətçiliyimizə təhlükə yaradan qiyamların yatırılması zamanı xalqa etdiyi müraciətlərində, əcnəbi liderlərlə görüşlərində bəzən emosionallıq, lazım gəldikdə isə müdriklik, təmkin, yüksək diplomatik məziyyətlər göstərməsi milli dövlətçilik qarşısında qeyri-adi məsuliyyətin vəhdətini nümayiş etdirirdi.

Ulu Öndər ana dilində sadəcə danışmır, yalnız fikir və emosiyasını ifadə etmir, o, ana dili ilə yaşayır, bu dildən mənəvi güc, qüvvə, ilham alır. Bu, Heydər Əliyevin dövlət dili ilə bağlı düşüncələrinin sadəcə söz olaraq qalmamasında, Azərbaycan dilinin bütün sahələrdə yayılması üçün əməli addımlar atmasında da özünü göstərirdi. Onun bilavasitə göstərişi, qəbul etdiyi qərarlar və sarsılmaz iradəsi ilə Azərbaycan dili dövlət səviyyəsində milli kimliyin, etnik-siyasi, mənəvi-ideoloji müstəqilliyin əsas elementinə çevrildi.

**Əməli fəaliyyət**

Heydər Əliyev yuxarıda qeyd edilən şərəfli amal uğrunda sovet hakimiyyəti illərində də böyük mübarizə aparmış, dövlət dilimizin qorunub saxlanılması və istifadəsinə əvəzsiz töhfələr vermişdir. Həmin töhfələrin nəticəsi onun müstəqil Azərbaycana rəhbərlik etdiyi vaxtlarda özünü daha da aydın göstərirdi. Yeni Konstitusiyanın qəbulu, dövlət dilimizin statusunun ən yüksək səviyyədə təsbiti, dilin xüsusi dövlət qayğısı ilə əhatələnməsi bilavasitə onun şəxsi diqqətində idi. Həmçinin bütün dövlət və qeyri-hökumət təşkilatlarında, dövlət dilinin bərqərar edilməsi, latın qrafikalı yeni əlifbaya keçid prosesinin başa çatdırılması məhz onun xidmətləri idi.

Bununla yanaşı, Heydər Əliyevin Fərmanı ilə hər il ölkəmizdə Azərbaycan Əlifbası və Dili Günü qeyd olunmağa başlanmış, "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanun təsdiqlənib. Müstəqillik dövründə ən qısa müddətdə Azərbaycan dilinin hərtərəfli inkişafı, ən yüksək hüquqi statusu alması, diplomatik sahədə tətbiqi, dünyanın ən mötəbər tribunalarından eşidilməsi Ulu Öndər tərəfindən əsası qoyulan milli dil siyasətinin bilavasitə nəticəsi olmuşdur.

O, Azərbaycan dilinə töhfəsi olan insanları, alimləri, mədəniyyət və incəsənət xadimlərini qorumaqla, onların fəaliyyətini yüksək qimətləndirməklə də dilimizin inkişafına əvəzsiz xidmət göstərmişdir.

Təsadüfi deyildir ki, Ümummilli Lider Heydər Əliyevin həyata keçirdiyi dil siyasətini bu gün onun siyasi məktəbinin varisi və layiqli davamçısı, Prezident İlham Əliyev uğurla və ləyaqətlə davam etdirir. Dövlət başçısının Azərbaycan dili ilə bağlı fərman və sərəncamları dilimizə ən yüksək səviyyədə diqqət və qayğının təzahürüdür.

Prezident İlham Əliyev, dahi şəxsiyyətin natiqlik istedadını da bu gün praktiki şəkildə gəncə nəslə şövqlə təqdim edir. Belə ki, Prezident İlham Əliyevin ən çox nəzərə çarpan və Ulu Öndərdən əxz etdiyi ən mühüm keyfiyyətlərdən biri də, 44 günlük Vətən müharibəsi dövründə hər kəsin diqqətini cəlb edən və yüksək rəğbət qazanan danışıq üslubu, nitq mədəniyyəti və yüksək natiqlik məharəti oldu. Bir neçə dildə mükəmməl, səlis, məntiqli və ardıcıl nitqi, saysız-hesabsız müsahibələri ilə informasiya müharibəsinin də önündə gedən Prezident İlham Əliyev bu cəbhədə də böyük Zəfərin əldə olunmasında müstəsna rol oynadı.

**Natiqlik zirvəsi**

Tanınmış tədqiqatçıların gəldiyi ümumi qənaət ondan ibarətdir ki, Ulu Öndər Heydər Əliyevdə görkəmli natiqlər üçün xarakterik olan bütün əsas əlamətlər cəmlənmişdir: əzəmətli və vüqarlı xarici görkəm; gur, təsirli və ovsunlayıcı səs, həmçinin möhkəm məntiq. Bunların hər hansı sonradan qazanılmır, insana ancaq Allahın mərhəməti ilə verilir.

Natiqlik üçün tələb olunan digər keyfiyyətlər isə insanın özündən, qazandığı təcrübədən, keçdiyi məktəbdən asılıdır. H.Əliyevin keçdiyi böyük ictimai-siyasi təcrübə məktəbi, yüksək mənəvi-mədəni və ideoloji hazırlıq, xalqla, cəmiyyətlə, insanlarla daimi əlaqə, ünsiyyət, idarəçilik istedadı, rəhbərlik məharəti və s. onun bir natiq kimi bu sənətin ən yüksək zirvəsinə yüksəlmək imkanı vermişdir.

Ulu Öndərin natiqlik mədəniyyətinin təhlili bizə bəzi nəticələri təqdim etmək imkanı verir:

1. Hansı mövzuda məruzə və ya çıxış edir, yaxud fikir mübadiləsi aparırsa, fərqi yoxdur, H.Əliyevin həmişə mövzuya dərindən, yüksək professional səviyyədə bələd olduğu ortaya çıxır.

2. Ulu Öndərin çıxışları auditoriyanın marağına, səviyyəsinə, dərketmə imkanına adekvat olur - auditoriya ilə natiq arasında, demək olar ki, hər dəqiqə sıx psixoloji rabitə mövcud olur.

3. Onun nitqində yazı dilinin yorucu təsirindən əsər-əlamət olmur, şifahi danışığın canlılığı hər zaman auditoriyanın ona diqqət kəsilməsinə imkan yaradır. Şifahilik, fıkrin birbaşa ifadəsi, güclü ümumiləşdirmə qabiliyyəti, dərin məntiq, analitik təfəkkür, hadisələrə cari gedişat vaxtında reaksiya vermə istedadı, habelə, cəmiyyətlə ünsiyyətə girmə məharəti və aktiv fikir mübadiləsinə meyillilik H.Əliyevin natiqlik üslubunun əsas elementləridir. Onun əzəmətli, mənalı görkəmi, məzmunlu səsi dinləyicilərdə, onların düşüncələrində dərin iz qoyur. Bu keyfiyyətlər natiqi auditoriya üçün daha anlaşıqlı, daha çox dərk olunan edir.

4. H.Əliyevin nitqini klassik natiqliyin ardıcıllıq, məntiqilik və sistemlilik kimi keyfiyyətləri səciyyələndirir. Onun güclü məntiqi, çıxışının həcmindən asılı olmayaraq, nitqinin məzmunu və ardıcıllığına nəzarət imkanı verir, bütün çıxışlarında ardıcıllıq, məntiqilik və sistemlilik mükəmməl bir şəkildə gözlənilir.

5. H.Əliyev bu və ya digər məsələnin müzakirəsi zamanı həm konkretdən ümumiyə, həm də ümumidən konkretə çox böyük ustalıqla keçir, nitqində müdrik ümumiləşdirmələri çox böyük məharətlə aparır.

6. Onun nitqinin mükəmməlliyi, zənginliyi özünü həm də işlətdiyi müdrik kəlamlarda göstərir. Bu kəlamların hər biri böyük bir əsər gücündədir.

7. Saatlarla ayaq üstə dayanaraq qüsursuz nitq təqdim etməsi, bir fikri təkrar-təkrar istifadə etməməsi, çıxışlarında sinonim zənginliyi və eyni sözləri təkrarlamaması, lakonik cümlə ilə böyük fikirlər ifadə etməsi onu milyonların sevimlisinə çevirən xüsusiyyətlərindən yalnız bir neçəsidir.

Beləliklə, Ulu Öndər Heydər Əliyev zəngin və təmiz ana dili, ideoloji-fəlsəfi kamilliyi, informativ gücü, ictimai-siyasi natiqlik sahəsindəki zəngin təcrübəsi, istedadı ilə bütöv bir məktəb yaratmış, əvəzsiz bir miras qoymuşdur. Onun adı milli düşüncə və təfəkkür tariximizə qızıl hərflərlə həkk olunmuş, ölməzlik qazanmışdır. Heydər Əliyevin bütün sahələrdə misilsiz xidmətləri, xüsusilə natiqlik məktəbi - Azərbaycan xalqının milli sərvəti kimi, ümumtürk və dünya natiqlik sənəti tarixində layiqli yerini tutmuş və tutmaqda davam edəcəkdir".

*Azərtac*

# “Hər anımız Vətən deyir” adlı vətənpərvərlik tədbirləri keçirildi



**Hərbi hissələrdə Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbaninin layihəsi əsasında Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin iştirakı ilə ”Hər anımız Vətən deyir” şüarı ilə silsilə tədbirlər keçirildi.**

Hərbi hissələrin şəxsi heyətinin iştirakı ilə keçirilən tədbirlərdə əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və respublikamızın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani Vətənimiz qarşısında misilsiz xidmətləri ilə seçilən, dünyada mövcud olan mürəkkəb tarixi-siyasi vəziyyətdə Azərbaycanı bütün sınaqlardan uğurla çıxaran dahi şəxsiyyət Heydər Əliyevin ömür yolundan söz açdı. Əbədiyaşar Komandanla bağlı unudulmaz xatirələrini gənc əsgərlərlə bölüşərək, yadda qalan məqamlardan danışdı.

Polkovnik Abdulla Qurbani onu da vurğuladı ki, bu cür tədbirlərin keçirilməsi hərbi qulluqçularımızın döyüş ruhunun və mənəvi-psixoloji vəziyyətinin yüksəldilməsində mühüm rol oynayır.

Gənc əsgərlərə xidmətlərində uğurlar arzulandı, hərbi qulluqçuların hüquq və vəzifələri izah edildi. Dünyada və ölkəmizdə baş verən hadisələr haqda siyasi məlumatlandırılma aparıldı. Azərbaycan və Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyalarının 8-ci iclasında əldə edilən razılığın nəticələrindən şəxsi heyət qürur hissi keçirdi, Qazaxın işğalda olan kəndlərinin azadlığa qovuşmasına ürəkdən sevindilər. Polkovnik A.Qurbani bu barədə ”Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin növbəti diplomatik qələbəsi” şüarını səsləndirdi.

Daha sonra tədbir iştirakçılarına Vətənimiz Azərbaycana, Müzəffər Ali Baş Komandana, rəşadətli Azərbaycan Ordusunun qəhrəmanlığına həsr olunmuş hərbi marşlar, vətənpərvərlik mahnıları, xoreoqrafik kompozisiyalar da təqdim edildi.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin təqdimatında ”Böyük Zəfər marşı” (sözləri A.Qurbaninin, musiqisi İ.Novruzovundur) tamaşaçılar tərəfindən alqışlarla qarşılandı. Qeyd edildi ki, ”Zəfər marşı” kompozisiyası ilk dəfə Xankəndi şəhərində ifa olunub.

Tədbir yekunlaşdıqdan sonra şəxsi heyətlə həmsöhbət olduq. Hərbi xidmətə Ağdam rayonundan çağırılan əsgər Fuad Hüseynov hərbi qulluqçulara göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıq etdi. ”Bu gün hər bir gənc ordu sıralarına qatılmağı ilə fəxr edir. Mən də Azərbaycan əsgəri olduğum üçün qürurlanıram. Xidmətə gəldiyimizdə hər birimiz xalqımıza, dövlətimizə sədaqətlə xidmət edəcəyimizə, əcdadlarımızın hərbi ənənələrini şərəflə davam etdirəcəyimizə təntənəli surətdə and içmişik. Hərbi Andımıza sadiq qalacağıq, Vətənimizə, xalqımıza xidmət edəcəyik, - deyə əsgər bildirdi.

Əsgərlər Nicat Vəliyev, Amin Rəhimov, Tuncay Tağıyev, Anar Aşurlu və digərləri Fuadın sözlərinə qoşularaq, Azərbaycan əsgəri adını qürurla daşıdıqlarını vurğuladılar. Bildirdilər ki, qalib ordunun hərbi qulluqçuları olaraq qarşılarına qoyulan vəzifələrin həyata keçirilməsi üçün səylərini heç vaxt əsirgəməyəcəklər, rəhbərliyin və xalqın böyük etimadını bundan sonra da şərəfli xidmətləri ilə doğruldacaqlar.

***İbrahim MƏMMƏDBƏYOV***✍

# “Yaralı xatirələr” yaddaşlardan kağıza köçürüldü...

**Xatirə yada düşdükcə, danışıldıqca, yaşadılan tarixdi - dilə gələn xatirələr olmuşları yenidən yaşatmadı. Qürurla, bir qədər kövrəkliklə, bəzən qəhərlə. El-obaya, xalqa, dövlətə, dövlətçiliyə aid olan xatirələr tarixə ehtiram da olur, narazılıq da, hiddət də olur, üsyan da. Hiddət də, üsyan da xalqa, dövlətə, dövlətçiliyə görə kükrəyən heysiyyətdi.**

2020-ci ilin 8 noyabrı da, 10 noyabrı da, 2023-cü ilin 20 sentyabrı da tarixləşdi. Dövlətə, dövlətçiliyə sədaqət kimi, xalqa məhəbbət kimi, dünyaya heyrət kimi...

Döyüşlərdə şəhid olanların azyaşlı uşaqlarının ”Atam nə vaxt qayıdacaq?” sualına nə ana, nə də nənə-baba dürüst söz deyə bilmirlər. Uşaq böyüyür, yoxluğun mahiyyətini dərk edir, gözləri yollardan yığılmasa da, kövrəkliklə ”Atam şəhid olub...” deyən uşağın yaralı kəlmələri evdə ananın, nənə-babanın, məktəbdə müəllimlərin gözlərindən yaş dərir. Atalı xatirələr xatırlana-xatırlana yaşadılır, yaşadıla-yaşadıla xatırlanır.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində Vətən müharibəsində qazanılan tarixi Zəfərə həsr olunmuş ”Yaralı xatirələr” adlı inşa müsabiqəsi (kiçik həcmli hekayə, esse, oçerk, novella) tarixi qürurla yaşatma niyyəti idi, hərbi qulluqçuların yaradıcı təxəyyülü də Zəfərə ehtiram bildirəcəkdi. Duyğusallığına görə, düşündürücülüyünə görə, fəlsəfi mahiyyətinə görə gərəkli tədbir kimi tarixləşəcəkdi.

Müsabiqəni giriş sözü ilə baş leytenant Günel Məmmədova açaraq bildirdi ki, 2020-ci il noyabrın 10-dan ”könüllərdə və dillərdə qərarlaşan” Zəfər Azərbaycan tarixinin qüdrət mərhələsi kimi tarixləşdi. Ordunun şəxsi heyətinin döyüş əzmi, qələbə ruhu xalq-ordu birliyi, sərkərdəlik qüdrəti on illərlə davam edən işğalı sonlandırdı, Azərbaycanın ərazi bütövlüyü bərpa olundu. Bu gün Mərkəzin əməkdaşı Gülxar Məmmədovanın təşəbbüsü ilə keçirilən inşa müsabiqəsi bu Zəfərə ehtiramın, dövlətə, dövlətçiliyə sədaqətin ifadəsi kimi tarixləşəcək. Hər iştirakçının yaddaşında yaşayan yaralı xatirələr bəlkə də ilk dəfə kağıza burada köçürüləcək...

Gülxar Məmmədova çıxışında Vətən müharibəsinin ilk günlərini xatırlatdı, xalqın ədalətli müharibəyə münasibətini qələbəyə çağırış kimi mənalandırdı, bu münasibətin xalqın müharibəsi olduğunu bildirdi.

Yadıma düşdü ki, oktyabrın ilk günündə döyüş bölgəsinə ezam olunmuşduq. Yol boyu camaatın döyüşə gedənlərimizi necə uğurladığını görmüşdüm, uşaqların, yeniyetmələrin əllərinin necə bayraqlaşdığını görmüşdüm, anaların göz yaşlarını kələğayısıyla necə sildiyini görmüşdüm. Gülxar Məmmədovanın çıxışı mənə bu anları da xatırlatdı. O günün xatirələri yaralı xatirələr deyildi, müsabiqədə iştirak etsəydim, başlanğıcı bu xatirələr olan sonrakı xatirələrdən yazardım: baş leytenant Elvin Şükürlünün qəhrəmanlığını, şəhidliyini xatırlayardım, yazardım. Dayaq məntəqəsində yaralı döyüşçülər görmüşdüm, yaralarından qan sızanlarımızı görmüşdüm, yaralı əli ilə yeni gətirilən yaralıya yardım etməyə cəhd edənlərimizi görmüşdüm, onlardan yazardım.

Gülxar Məmmədova müsabiqənin qaydalarını, şərtlərini izah etdi, yaradıcılıq müsabiqəsini şərtləndirən amilləri xatırlatdı, iştirakçıların janr seçimində sərbəst olduğunu bildirdi. Onu da əlavə etdi ki, bu inşa bədii təxəyyülə söykənməklə tarixi gerçəklikləri əks etdirməlidir. İştirakçılar inşanı 3 akademik saat müddətində tamamlamalıdır.



Müsabiqə başladı. İştirakçıların düşüncəli baxışlarında bir istək sezilirdi - xatirələrə ehtiram kimi onları daha duyğusallıqla ifadə etmək. Baxışlarda bir qədər narahatlıq da vardı - xatirələri hansı janrda yazmaq...

Müsabiqənin mahiyyətində qürur vardı - Zəfər, müqəddəsliyə ehtiram vardı - Vətən, Vətənə sədaqət, şəhidlikdən keçən döyüşlər. İştirakçıların nə yazacağını güman edirdim, necə yazdıqları münsiflərin yoxlamasından sonra bilinəcəkdi.

Münsiflər inşaları oxuyublar, hər birinin dil-üslub, mövzu, ideya çalarlarını nəzərə almaqla inşaları (təbii ki, həm də bədii ifadə vasitələrindən istifadə) qiymətləndiriblər.

Müsabiqədə iştirak edənlərin nəticələri maraqla, həyəcanla gözlədiyi sezilirdi.

Baş leytenant Rəşid Məmmədov birinci, kursant Faiq Ağayev ikinci, baş leytenant Süleyman Muradov üçüncü yerə layiq görüldülər. Bütün iştirakçılara fəxri fərmanlar təqdim olundu.

”Yaralı xatirələr” inşa müsabiqəsi tarixi Zəfərə ehtiramın ifadəsi olmaqla, hərbi qulluqçuların yaradıcılıq qabiliyyətinin aşkarlanmasında da əhəmiyyətli tədbir kimi tarixləşdi.

***Rəşid HÜSEYNOV***✍

# Ədalət Verdiyev: “Bu Azərbaycan tərəfinin böyük etirazı ilə qarşılanacaq”



**Ermənistan Parlamentinin deputatı Anna Qriqoryan İrana səfər edib. O səfərdə İRNA-ya verdiyi müsahibəsində qeyd edib ki, Ermənistanla İran arasında hərbi sazişin imzalanmasının tərəfdarıdır və bu mümkündür.**

**Azərbaycanla-Ermənistan arasına sülh gündəminin aktual olduğu bir dönəmdə bu Ermənistan və İranın belə bir addımı realdırmı?**

Məsələyə münasibət bildirən hərbi ekspert Ədalət Verdiyev hesab edir ki, Ermənistan indiyə kimi bir çox ölkələrlə, hətta hərbi blok sayılan KTMT ilə təhlükəsizlik sahəsində çoxsaylı müqavilələr bağlayıb:

“İmzalanan bu müqavilələrdən heç biri Ermənistanı işğalçı siyasətini davam etdirməyə imkan vermədi. Hazırkı zamanda Ermənistan hərbi müttəfiq kimi dünyanın heç bir ölkəsi üçün önəm kəsb etmir. Sadəcə Ermənistanın yerləşdiyi coğrafi məkana və ondan qonşulara qarşı istifadə məsələsi çox asan proses olduğu üçün Ermənistana bəzi ölkələr maraq göstərirlər”.

**Həmçinin ekpert sözü gedən sazişinin bağlanacağını real görmədiyini qeyd etdi:**

“Mən inanmıram ki, İran Ermənistanla hərbi müqavilə bağlamağa razı olsun. Bu Azərbaycan tərəfinin böyük etirazı ilə qarşılanacaq. Çünki İran islam ölkəsi olaraq islam dəyərlərinə hörmət etməyən, məhv edən, 30 ildən artıq islam məbədlərini darmadağın edən, 13.500 kv\ m ərazidən müsəlmanları qovan və talayan edən bir ölkə ilə hərbi müqavilə imzalaması Azərbaycanın İranla münasibətlərinin pozulmasına gətirib çıxracaq. Bu da öz növbəsində Azərbaycanın adekvart addımlar atamağa yönəldəcək”.

**Ədalət Verdiyev bu sazişi uğursuz addım kimi qiymətləndirib:**

“Ermənistan tərəfindən İrana hərbi sazişin imzalanması təklifinin verilməsi Paşinyan hakimiyyətinin şər qüvvələrin alətinə çevirmək üçün atdığı uğursuz addım kimi dəyərləndirə bilərik. İndiyə qədər Azərbaycan qarşı hərbi ittifaqlar, sazişlər imzalayan Ermənistan hazırda tarixinin ən ləyaqətsiz dövrünü yaşayır. Ermənitanın düşdüyü bu vəziyyətdən heç bir sazişlər də xilas edə bilməyəcək”.

# “Bu Ermənistanın ambisiyalarından uzaq durduğunu göstərir”

**Ermənistan parlamentinin Milli Təhlükəsizlik Komissiyasının üzvü Anna Qriqoryan İrana səfəri zamanı Iran və Ermənistan arasında hərbi sazişin imzalanmasının tərəfdarı olduğunu qeyd edib. Anna Qriqoryan belə bir hərbi sazişin bağlanmasının təhlükələrin qarşısını almaq üçün zəruri olduğunu bildirib. Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşmaya doğru getdiyi bir zamanda belə bir halın baş verməsi realdırmı?**

Mövzu ilə bağlı sualları cavablayan politoloq Turan Rzayev bildirdi ki, prinsip etibarilə İranla Ermənistan arasında onsuz da hərbi saziş mövcuddur:

“Yəni bu anlayış müxtəlif sahələrdə aparılan əməkdaşlıq özündə ehtiva edə bilər. Silah, yardımların edilməsi və yaxud da ki, ortaq hərbi təlimlər hərbi əməkdaşlıqların aparılması kimi məsələləri özündə əks edə bilər. Yəni burada qeyri-adi heç nə yoxdur”.

**Bu baş tutarsa, regionda hansı proseslər baş verəcək?**

“Gələcəkdə hansısa bir eskalasiya vəziyyətində və yaxud da gərginlik baş verərsə, bu zaman İran tərəfi ənənəvi olaraq yenə Azərbaycana reaksiya bildirə bilər və yaxud da həssaslıqlarını dilə gətirə bilərlər. Amma faktiki olaraq bu gün regionda sülh istiqamətində mühüm addımlar atılır”.

**O, həmçinin qeyd edib ki, o saziş imzalansa, belə biz narahat olmamalıyıq:**

“Azərbaycanla Ermənistan arasında gedən sülh prosesi çərçivəsində bu sazişin imzalanması prinsip etibarilə bizi o qədər narahat etməməlidir. Hər halda ölkələrin qarşılıqlı şəkildə hərbi əməkdaşlıq etməsi başa düşüləndir və ümumiyyətlə, bütün hərbi əməkdaşlıqlar da Azərbaycana qarşı yönələcək də deyil. Yəni İranla Ermənistan müttəfiq olub Azərbaycanı işğal etmək kimi bir planları yoxdur. Sadəcə, biz bu tip məsələlərə həssas yanaşırıq. Təbii ki, Azərbaycan Ermənistanın silahlandırılması və bunun gələcəkdə gərginliyə səbəb olma ehtimalları üzərindən dəyərləndirmə aparır”.



**Politoloq hesab edir ki, Ermənistan tərəfi də artıq mövcud vəziyyətlə barışıb.**

“Ermənistan 1991-ci il Alma-Ata bəyannaməsi əsasında sülh müqaviləsinin imzalanmasını istəyir. Yəni bu belə öz-özlüyündə Ermənistanın ambisiyalarından uzaq durduğunu və artıq işğalçı fəaliyyətinin davam etdirməyəcəyini göstərir”.

# Ekspert: “Azərbaycan ABŞ üçün çox önəmlidir”




*Azərbaycan Avropanı enerji ilətəmin etməkdə mühüm rola sahibdir.*

**Bu sözləri Herbiand.az-a iqtisadçı-ekspert Eldəniz Əmirov bildirib.**

**O, həmçinin qeyd edib ki, Amerika və Azərbaycan arasında olan iqtisadi əməkdaşlıq, bu istiqamətdə olan danışıqların qayəsində birbaşa Azərbaycan-ABŞ münasibətləri və Azərbaycan Avropa münasibətləri faktoru dayanır:**

“Amerikanın Avropaya sərgilədiyi münasibət nəticə etibarı ilə Avropanın Rusiyadan bütün sahələrdə olan enerjisi ilə aslılığın azaldılmasına yönəlib. Bu istiqamətdə Avropa ciddi çətinliklərlə üzləşir. Belə bir məqamda Amerika rəsmi olaraq Bakının Avropa enerji təzcihatında oynadığı önəmili rolunu dəstəkləyir və bunu cox yüksək qiymətləndirir. Bayden iki il öncə Azərbaycana ünvanladığı məktubu xatırladaraq, elə o zamanda Azərbaycanı etibarlı tərəfdaş qismində tanıdığınlı vurğuladı. Hazırkı məqamda da Azərbaycanın Avropanın enerji təzcihatında önəmli rol oynaması ABŞ üçün çox önəmlidir”.

**Ekspert qeyd edib ki, burada digər məsələ yaşıl enerji sektoruna yönəlik fəaliyyətdir ki, Azərbaycan bilavasitə bu sektorda çox böyük nailiyyətlər əldə etmişdir:**

“Çünki Avropanın enerji təzcizatında Azərbaycanın rolu artıqca Avropa Rusiya aslılığından çıxır. Əks təqdirdə isə ABŞ-nin apardığı Avropa siyasətində müəyyən ölkələrə təzyiq göstərilir. Hansı ki o ölkələr Rusiya enerjisindən daha çox aslıdırlar. İkili əməkdaşlığa gəldikdə 1994-cü ildə “Əsrin müqaviləsi” imzalanan sonra ABŞ enerji sektorunda böyük həcmdə yatırımlar yatırdı. Eyni zamanda ABŞ tərəfdaş olduğu ölkələrlə Azərbaycan ciddi tərəfdaşdır. Buyrada digər məsələ yaşıl enerji sektoruna yönəlik fəaliyyətdir ki, Azərbaycan bilavasitə bu sektorda çox böyük nailiyyətlər əldə etmişdir. Çünki neft strategiyasından sonra qaz strategiyası, daha sonra alternativ enerji strategiyası özünü sözün həqiqi mənasında doğrultmaqdadır COP-29-un Azərbaycanda keçirilməsi əbəs deyildir və bu istiqamətdə də dünyanın 190 artıq ölkəsindən rəsmi şəxslərin gəlməsi və burada qlobal iqlim dəyişikliyinə qarşı bir sənədin imzalanması planlaşdırılır”.

Ekspert qeyd etdi ki, keçmiş SSRİ ölkələri arasında Azərbaycan birinci ölkədir ki,COP-a evsahibliyi edir.

***Səhifəni hazırladı:***
***Emin ŞİRVANZADƏ***

# Böyük yazıçı, alim və pedaqoq

**Böyük zəhməti, parlaq istedadı, ürəyində gəzdirdiyi mərhəmət və xeyirxahlıq hissi onu daim yüksəklərə səsləyirdi. Elə buna görə də onun mənalı ömrü tutduğu vəzifəsindən asılı olmayaraq mənsub olduğu millətə xidmət etməklə keçib.**

XX əsr Azərbaycan elminin, ədəbiyyatının, təhsilinin inkişafında misilsiz xidmətlər göstərmiş görkəmli yazıçı, böyük alim Mir Cəlal Paşayev həm də yüksək insani keyfiyyətləri ilə nurlu şəxsiyyətlərdən biri kimi xalqımızın yaddaşında özünə əbədiyaşarlıq qazanıb.

Görkəmli yazıçı Mir Cəlal Paşayevin anadan olmasının 116-cı ildönümü tamam oldu.

Mir Cəlal Əli oğlu Paşayev 1908-ci il aprelin 26-da Cənubi Azərbaycanın Ərdəbil vilayətində yoxsul kəndli ailəsində dünyaya göz açıb. Kiçik yaşlarında atası Gəncəyə köçdüyündən uşaqlığını burada keçirib. Mir Cəlal 10 yaşında olanda atası vəfat edib və o, böyük qardaşının himayəsində yaşayıb.

Əzablı ömür qisməti dünyaya gəldiyi ilk illərdən bu oğlanı izləməyə başlasa da, Ulu Tanrının mərhəməti sayəsində Mir Cəlal Paşayev çox çətinliklərə sinə gərərək, öz yolu ilə inadla, inamla irəliləyib. O, 1918-1919-cu illərdə Xeyriyyə Cəmiyyətinin köməyi ilə ibtidai təhsil alıb və Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Gəncə Darülmüəllimliyinə daxil olub. Tələbə təşkilatının, sonra isə şəhər tələbə həmkarlar təşkilatının sədri seçilib.

Mir Cəlal Paşayev Kazan Şərq Pedaqoji İnstitutunun ədəbiyyat şöbəsində, Azərbaycan SSR Elmlər Akademiyasının aspiranturasında təhsilini davam etdirməklə yanaşı, müəllimlik edib və millətinin övladlarına xalqının ədəbiyyatını, mədəniyyətini, zəngin keçmişini mənimsədib. Bu mənada Mir Cəlal Paşayevin XX əsr Azərbaycan elminin, ədəbiyyatının, təhsilinin inkişafındakı xidmətləri misilsizdir.

Yazıçı kimi 1928-ci ildə ədəbiyyata gələn Mir Cəlal, elə həmin ildə də ilk tədqiqat əsərini yazıb.

Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) sevimli müəllimi, nüfuzlu professoru kimi xatirələrdə daim yaşayan Mir Cəlal Paşayev həqiqət, düzlük, səmimiyyət aşiqi, ailəsini, övladlarını sevən, qoruyan şəxsiyyət olub. Onun bu kəlamı indi də dillər əzbəridir: "Həyatımda yaratdığım ən böyük əsər ailəmdir".

XX əsrin 20-30-cu illərində ədəbi aləmdə əvvəlcə şeir, sonra isə oçerk və hekayələri ilə görünən Mir Cəlal, az sonra istedadlı və orijinal yaradıcılıq üslubu olan yazıçı kimi tanınıb. Səməd Vurğun, Süleyman Rəhimov, Süleyman Rüstəm, Mehdi Hüseyn kimi görkəmli söz ustadları ilə bir dövrdə yaşayan Mir Cəlal öz yazı üslubu ilə həmkarlarından fərqlənərək Azərbaycan ədəbiyyatına yeni nəfəs gətirib. XX əsr Azərbaycan ədəbiyyatının bir sıra nailiyyətləri bilavasitə onun adı ilə bağlıdır. Mir Cəlal Paşayev ədəbi-bədii, ictimai-fəlsəfi yaradıcılığı ilə ədəbiyyatımızda əsaslı dönüş yaradan mütəfəkkir yazıçılardan biri olub. Əlli illik yaradıcılıq fəaliyyətində o, görkəmli nasir kimi Azərbaycan ədəbiyyatı tarixində öz layiqli və şərəfli yerini tutub.

Tam əminliklə deyə bilərik ki, təkcə "Bir gəncin manifesti" əsərinə görə Mir Cəlal klassik sənətkarlar sırasında dayanmaq haqqını qazanıb. Bu əsər çapdan çıxanda onun heç 30 yaşı yox idi. 1928-ci ildə mətbuatda ilk şeirləri ("Dənizin cinayəti", "Ananın vəsiyyəti", "Müxbir") çap olunub. Lakin o, bundan sonra, daha doğrusu, 1930-cu ildən etibarən hekayələr yazıb. O dövrün "Şərq qadını", "Gənc işçi", "İnqilab və mədəniyyət", "Ədəbiyyat qəzeti" kimi nüfuzlu nəşrlərində "Doktor Cinayətov", "İfşa", "Mərkəz adamı", "Naxələf", "Bostan oğrusu", "Qüdrət nümayişi", "İstifadə", "Dəzgah qızı", "Heyrət" və digər hekayələrini çap etdirib. 1932-ci ildə "Sağlam yollarda", 1935-ci ildə "Boy" adlı ilk oçerklər və novellalar kitabları işıq üzü görüb.

Sözün gücünə güvənib, onun böyüklüyünə baş əyən bu sənətkarın yaradıcılıq dünyası ilə tanışlıqdan sonra belə qənaətə gəlmək olur ki, həyati məsələləri, milli folklorun, xalq təfəkkürünün işığını, milli mənəvi dəyərlərin klassik ənənələrə uyğun inkişafını və bu istiqamətdə yaranan problemləri, xalq həyatının real görüntüsünü nəsr dilində aydın, qabarıq şəkildə vermək mümkündür. Necə ki, Sabiri oxuyanda şeirin, Mirzə Cəlili oxuyanda satira və yumorun gücünü duyursan, Mir Cəlal hekayələrini oxuyanda da eyni hissləri keçirirsən.

Yazıçının ilk irihəcmli əsəri - "Dirilən adam" romanı 1935-ci ildə ayrıca kitab kimi nəşr olunub. Akademik Məmməd Arif bu əsər haqqında yazıb: "Mir Cəlal "Dirilən adam"la diqqətli bir realist yazıçı olduğunu göstərmişdir".

İlk dəfə 1937-39-cu illərdə hissə-hissə "Revolyusiya və kultura" jurnalında nəşr olunan "Bir gəncin manifesti" isə yazıçının həyatında böyük bir dönüş yaradıb, ədəbi zirvəyə aparan yoluna cığır açıb və müəllifə böyük oxucu auditoriyası qazandırıb. 1940-cı ildə "Uşaqgəncnəşr"də kitab halında kütləvi tirajla buraxılan bu əsər oxucu tələbatına görə sonrakı illərdə də çap edilib. "Bir gəncin manifesti" bu gün də könüllərə yanğı salır, qəlbləri riqqətə gətirir. Doqquz dəfə müxtəlif illərdə ayrıca kitab halında nəşr olunmuş bu əsər Azərbaycanın hüdudlarından çox-çox uzaqlarda da sevilir.

Mir Cəlalın "Dirilən adam", "Yolumuz hayanadır" romanlarında keçmiş, "Açıq kitab", "Yaşıdlarım", "Təzə şəhər" romanlarında isə müasir həyat lövhələrinin bədii təsviri ustalıqla qələmə alınıb. Yazıçının "İnsanlıq fəlsəfəsi" (1961) kitabında toplanmış hekayələri böyük tərbiyəvi-əxlaqi əhəmiyyətə malikdir. "İnsanlıq fəlsəfəsi", "Subaylıq fəlsəfəsi", "Təzə toyun nəzakət qaydaları", "Vicdan mühakiməsi", "Vicdan əzabı", "Hesab dostları", "Təsadüf, ya zərurət", "Qocaların uşaq söhbəti" və digər hekayələrində isə real həyat lövhələri, fəlsəfi düşüncələr əks olunub.

Qüdrətli nasirin bədii yaradıcılıq nümunələri dəfələrlə çap edilib. Onun "Seçilmiş əsərləri" (2 cilddə, 1956-57), "Seçilmiş əsərləri" (4 cilddə, 1967-68), "Seçilmiş əsərləri" (2 cilddə, 1986-87), hekayə və povestlərdən ibarət "Şəfəqdən qalxanlar" (1972), "Dağlar dilə gəldi" (1978), "Ləyaqət", hekayələrdən ibarət "Bostan oğrusu" (1937), "Gözün aydın" (1939), "Vətən" (1944), "Həyat hekayələri" (1945), "Sadə hekayələr" (1955), "Xatirə hekayələri" (1962), "Gülbəsləyən qız" (1965), "Silah qardaşları" (1974) və digər kitabları bu qəbildəndir. Ümumiyyətlə, indiyədək yazıçının 70-dən çox kitabı işıq üzü görüb.

XX əsrin ədəbi-elmi fikrinin korifeylərindən olan Mir Cəlal Paşayev çağdaş Azərbaycan tarixində ədəbiyyatşünas-nəzəriyyəçi alim kimi də xüsusi yer tutub. Filologiya fakültəsi tələbələrinin birinci kursda istifadə etdikləri "Ədəbiyyatşünaslığın əsasları" dərsliyi sonralar da mütəxəssislərin stolüstü kitabı olub. Böyük pedaqoq 1936-cı ildən ömrünün sonunadək dərs dediyi universitetin auditoriyalarında bu fəndən mühazirələr oxuyub.

Mir Cəlal Paşayev 1940-cı ildə "Füzulinin poetik xüsusiyyətləri" dissertasiyasına görə filologiya elmləri namizədi, 1947-ci ildə isə "Azərbaycanda ədəbi məktəblər" əsərinə görə filologiya elmləri doktoru elmi dərəcələrini alıb. Füzuli poeziyasını dərindən duyan, klassik ədəbiyyata qəlbən bağlı olan görkəmli alim 1958-ci ildə bu mövzuya yenidən müraciət edərək "Füzuli sənətkarlığı" adlı monoqrafiyasını nəşr etdirib. Professor Qara Namazov bu monoqrafiyanı Füzuli ədəbi irsinin öyrənilməsində, mənimsənilməsində və dərk edilməsində elmi açar kimi dəyərləndirir. Təsadüfi deyil ki, əsər 1994-cü ildə yenidən işıq üzü görüb.

"Azərbaycanda ədəbi məktəblər (1905-1917)" əsərində isə Mir Cəlal Paşayev XX əsrin əvvəllərində inqilabi-demokratik meyllərlə əlaqədar baş verən ictimai-siyasi hadisələr kontekstində Azərbaycanda realizm, romantizm ədəbi məktəbləri, maarifçi-didaktik yazıçılar və xırda məişət dramları haqqında müfəssəl tədqiqatlar aparıb, əhatəli elmi nəticələr çıxarıb.

Ədəbiyyatşünas alimin tanınmış tədqiqatçı Firudin Hüseynov ilə birgə yazdığı "XX əsr Azərbaycan ədəbiyyatı" əsəri 40 ilə yaxındır ki, ali məktəblərdə dərslik kimi istifadə olunur. Bu dərslikdə XX əsrin böyük ədəbi şəxsiyyətləri, onların yaradıcılığı, ədəbi mühitə gətirdikləri yeniliklər haqqında əhatəli elmi fikirlər tam dolğunluğu ilə əksini tapıb.

Mir Cəlal Paşayev böyük şəxsiyyətlərin həyat və yaradıcılıqlarını, dövrün ictimai-siyasi, ədəbi-mədəni mühitini öyrənməklə, tədqiq etməklə özü də zirvələrə ucalıb, əsl şəxsiyyət kimi müdrikləşib.

Əməkdar Elm Xadimi Mir Cəlal Paşayevin XX əsr ədəbiyyatında, ədəbiyyatşünaslıq tarixində açdığı cığır çağdaş təfəkkürümüzün də əsas sütunu olaraq qalacaq.

1978-ci il sentyabrın 28-də əbədiyyətə qovuşmuş, böyük şəxsiyyət kimi tarixləşmiş, gözəl müəllim, görkəmli yazıçı, istedadlı ədəbiyyatşünas Mir



Cəlal Paşayevin xatirəsi daim qəlblərdə yaşayacaq, ədəbiyyatımızın, ədəbiyyatşünaslığımızın əbədi mövzusu olaraq qalacaq.

Müdriklər deyiblər ki, kamil insan, alim, yazıçı dünyanı təkcə izah etmir, eyni zamanda, onu dəyişdirir, insanların şüuruna, baxışlarına təsir edə bilir. Bu mənada Mir Cəlal Paşayevin çoxşaxəli yaradıcılığı nəinki müasirlərinə, həm də özündən sonra gələn nəsillərə örnəkdir.

Mir Cəlal bütün yaradıcılığı boyu oxucuları ilə həmişə səmimi söhbət aparıb. Elə buna görə də görkəmli ədibin həyat və yaradıcılığı bu gün nəinki Azərbaycanda, onun sərhədlərindən kənarda da geniş şəkildə öyrənilir və əsərləri müxtəlif dillərdə nəşr edilərək maraqla oxunur.

Azərbaycan Respublikası Prezidentinin "UNESCO-nun 2008-2009-cu illərdə görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin qeyd edilməsi proqramına Azərbaycanla bağlı daxil olmuş yubileylərin keçirilməsi haqqında" 2008-ci il 31 yanvar tarixli Sərəncamına əsasən, yazıçı Mir Cəlal Paşayevin yubiley mərasimi təntənə ilə qeyd edilib. Parisdə, UNESCO-nun iqamətgahında XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, alim, pedaqoq Mir Cəlal Paşayevin 100 illiyinə həsr olunmuş mərasim keçirilib. Bu həm də Azərbaycan elminə, mədəniyyətinə və ədəbiyyatına dünya miqyasında verilən dəyərin təzahürüdür.

Xatırladaq ki, 2014-cü ildə böyük ədibin "Seçilmiş əsərləri"nin (5 cilddə) təqdimatı olub. "Adiloğlu" nəşriyyatında nəfis şəkildə çapdan çıxmış beşcildliyin tərtibçiləri M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin (MDU) Bakı filialının rektoru, professor Nərgiz Paşayeva və filologiya elmləri doktoru, professor Təhsin Mütəllimov, redaktoru Şəmsəddin Axundov, rəssamı isə Nüsrət Süleymanoğludur. Uzun illərdən sonra ədibin əsərlərinin ardıcıllıqla, vahid toplu halında işıq üzü görməsi əslində ədəbi hadisədir.

İllər ötdükcə Mir Cəlal Paşayevin təkcə elmi irsi tədqiq edilmir, onun həm də xeyirxahlığı, böyük və əlçatmaz müəllimliyi, bəşəriliyi heyranlıqla qarşılanır və sevilə-sevilə qəlblərdə özünə abidə qurur. Ədibin bu zirvədəki yeri daim qalacaq və onun mərhəmət sevgisi dünya durduqca yaşayacaq.

*Azərtac*

# Ölkəmizdə korrupsiyanın qarşısının alınması üçün effektiv mübarizə aparılır

*Bu gün Azərbaycan beynəlxalq hüququn subyekti kimi dünya birliyində öz layiqli yerini tutmuş və söz sahibinə çevrilmişdir. Bununla yanaşı, ölkəmiz həm də qloballaşan dünyanın bir hissəsidir. Azərbaycanın 44 günlük Vətən müharibəsindəki uğurları, qələbəsi ilə, sözün həqiqi mənasında tarix yaratmışdır. İşğal altında olan ərazilərin azad edilməsi ilə ölkəmiz üçün yeni inkişaf mərhələsi açılmışdır.*

İqtisadi və siyasi islahatların aparıldığı bir dövrdə dövlət və yerli özünüidarəetmə orqanlarında korrupsiyanın geniş vüsət alması, onun ictimai-siyasi həyatın bütün sahələrinə sirayət etməsi cəmiyyətin "xərçəng" xəstəliyi hesab edilən bu hala qarşı mübarizənin gücləndirilməsi sahəsində siyasi və hüquqi tədbirlər proqramının işlənib hazırlanmasını zərurətə çevirmişdir.

Bazar iqtisadiyyatına keçid korrupsiyanın təzahür formalarından biri kimi vəzifəli şəxsin özünün, təmsil etdiyi orqanın statusundan, vəzifə səlahiyyətlərindən irəli gələn imkanlardan istifadə hallarının artması ilə müşahidə olunur. İqtisadi həyatda xüsusi mülkiyyətə yer ayrılması, varlılar təbəqəsinin üzə çıxması və onların dövlət məmurlarına qarşı münasibətdə müqayisə olunmayan dərəcədə yüksək maddi təminatı, kadrların seçilməsində, yerləşdirilməsində və təyin olunmasında dövlət nəzarətinin lazımi səviyyədə olmaması, hüquq mədəniyyətinin və hüquqi şüurun yüksəldilməsi sahəsində təbliğat işlərinin aparılmaması korrupsiyanı doğuran amillərdəndir.

Korrupsiya sosial hadisədir. O, şəxsi mənafeyi əsas tutaraq varlanmaq məqsədilə vəzifəli şəxslər tərəfindən qulluq mövqeyindən sui-istifadə etməklə xarakterizə olunan və bir çox hallarda isə az qala onların həyat tərzinə çevrilən, nəticə etibarilə idarəetmə sistemini iflic vəziyyətə salan, ictimai həyatın ən eybəcər formasıdır.

İqtisadi sahədə korrupsiya ədalətli rəqabətin pozulmasına, kölgə iqtisadiyyatının inkişaf etməsinə, gəlirlərin vergidən yayınmasına, investisiya qoyuluşunun, qiymətli kağızlar, sığorta və maliyyə bazarının inkişafının ləngiməsinə səbəb olur.

Yeni iqtisadi münasibətlərə - bazar iqtisadiyyatına keçid mərhələsində korrupsiya öz miqyası ilə diqqəti cəlb edir. O iqtisadiyyata əhəmiyyətli dərəcədə ziyan vurur, hökumət səviyyəsində qəbul edilmiş qərarların səmərəsini və vətəndaşların dövlət hakimiyyətinə olan etimadını zəiflədir, məhkəmə sistemində qanunsuz qərarların qəbul edilməsinə, ictimai həyatın və dövlət həyatının bütün sahələrində (təhsil, mədəniyyət, ordu, elm, incəsənət, siyasət və s.) özbaşınalığın baş qaldırmasına səbəb olur. Bütün bunlar öz növbəsində dövlətin daxili və xarici siyasətinə mənfi təsirini göstərməyə bilməz.

Azərbaycanın 2003-cü il dekabrın 30-da imzaladığı "Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında" 1999-cu il yanvarın 27-də Strastburq şəhərində qəbul olunmuş Konvensiyada qeyd edilir ki, korrupsiya qanunun aliliyinə, demokratiya və insan hüquqlarına təhlükə yaradır, səmərəli dövlət idarəçiliyini sarsıdır, bərabərlik və sosial ədalət prinsiplərini pozur, rəqabət üçün şəraiti təhrif edir, iqtisadi inkişafı çətinləşdirir, demokratik təsisatların sabitliyinə və cəmiyyətin mənəvi dəyərlərinə təhlükə yaradır.

Zəmanəsinin məşhur siyasi xadimi Nikkolo Makiavelli korrupsiyanı əvvəlcədən müəyyənləşdirilməsi çətin, lakin müalicəsi asan olan, bir müddət sonra isə müəyyənləşdirilməsi asan, lakin müalicəsi mümkün olmayan xəstəliyə bənzətmişdir.

Korrupsiya elə bir xəstəlikdir ki, həm varlı, həm də kasıb ölkələrə məxsusdur və dövlətdə bir siyasi, yaxud iqtisadi formasiyadan digərinə keçid zamanı daha geniş və sərt şəkildə özünü büruzə verir.

Müasir beynəlxalq normativ sənədlər korrupsiyanın müxtəlif təriflərini vermişdir. BMT-nin korrupsiya ilə bağlı sənədlərində o, şəxsi maraqlar üçün dövlət hakimiyyətindən sui-istifadə kimi başa düşülür, yəni korrupsiya rüşvətxorluqdan kənara çıxır. Bu anlayış rüşvətxorluğu da, şəxsi əlaqələr zəminində himayəni də və şəxsi istifadə üçün ictimai vəsaitlərin qeyri-qanuni mənimsənilməsini də özündə ehtiva edir.

"Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununa əsasən korrupsiya - vəzifəli şəxslərin öz statusundan, təmsil etdiyi orqanın statusundan, vəzifə səlahiyyətlərindən və ya həmin status və səlahiyyətlərdən irəli gələn imkanlardan istifadə etməklə qanunsuz olaraq maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər əldə etməsi, habelə fiziki və hüquqi şəxslər tərəfindən qeyd edilən maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin qanunsuz olaraq vəzifəli şəxslərə təklif və ya vəd olunması və yaxud verilməsi yolu ilə həmin vəzifəli şəxslərin ələ alınmasıdır.

Azərbaycan cəmiyyətində korrupsiya deyiləndə ilk növbədə bu ifadə rüşvət almaq, rüşvət vermək anlamına gəlir. Əslində bu belə deyildir. "Korrupsiyaya qarşı mübarizə haqqında" Qanunun 9-cu maddəsində korrupsiyanın nədən ibarət olmasının açıqlanması verilmişdir. Belə ki, korrupsiya dedikdə vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətin edilməsi və ya belə hərəkətin edilməsi müqabilində özü və ya üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər tələb etmə, əldə etmə və ya belə maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin verilməsi ilə bağlı vədi və ya təklifi qəbul etmə və sair hərəkətlər başa düşülür.

Dünya ölkələrində də korrupsiyaya qarşı mübarizə davamlı olaraq aparılmaqdadır. İngiltərədə korrupsiyanı nəzarət altına almaq üçün 100 ildən artıq vaxt lazım olmuşdur. Amma bunun əksinə olaraq Sinqapur və Honkonq kifayət qədər tez bir zamanda korrupsiyadan təmiz səviyyəyə keçmişdilər. Botsvana isə bunu 10 il ərzində etmişdir. Çili bir neçə ilə korrupsiyanın öhdəsindən gəlmişdir. Polşa və Uqanda qısa bir müddətdə korrupsiyaya nəzarət yolunda uğurlu irəliləyişə nail olmuşdular.

Amerikanın Dövlət Departamenti hər il ölkənin birinci şəxslərinə verilən hədiyyələrin siyahısını Milli arxivin "Federal Register" adlı xüsusi məcmuəsində dərc edir. Prezident hədiyyələrinin siyahısından məlum olur ki, Ağ evin sahiblərinə verilən hədiyyələr onların tabeçiliyində olanlardan azdır.

Korrupsiya ilə mübarizə çərçivəsində son illər Cənubi Koreyada vəzifəli şəxslər kənar şəxslərdən heç bir hədiyyə və buna oxşar şeylər ala bilməzlər. Qanuna görə dövlət qulluqçusu dəyəri 30.000 vondan (27 dollar) çox olan hədiyyəni qəbul edə bilməz, başqasının hesabına nahar etmək isə qadağan edilir.

Bu məbləğ Koreya üçün çox cüzidir. Hədiyyə göstərilən məbləğdən yuxarıdırsa, yaxşısı budur ki, belə hədiyyəni qəbul etməyəsən, qəbul etmisənsə, onu dövlətə təhvil verməlisən. Əks halda bu rüşvət kimi qiymətləndiriləcəkdir.

Əlbəttə dövlət qulluqçuları ilə bağlı Koreyada baş verən korrupsiya qalmaqalları korrupsiyaya qarşı mübarizə haqqında qanunu pozanların sayının o qədər də az olmadığını deməyə əsas verir.

Buna baxmayaraq, dövlətin ehtiyat fondu dövlət qulluqçularına verilən qiymətli avtoqələmlərlə, rəsm əsərlərilə, spirtli içkilər və digər əşyalarla zənginləşir. Söhbət Koreyanın ali rəhbərliyinə verilən hədiyyələrdən gedirsə, bütün hədiyyələr anbarlara yığılır, sonradan nadir və maraqlı əşyalar xüsusi sərgilər keçirilən zaman ictimaiyyətə sərgilənir.

Korrupsiya və rüşvətxorluq inkişaf etmiş Avropa ölkələrinin də ümumi bəlasıdır. Bu baxımdan, korrupsiyaya qarşı mübarizə ilə bağlı Fransanın təcrübəsi çox maraqlıdır.

Dövlət qulluğuna daxil olan fransız bir sıra qaydalara əməl etməlidir. Onlardan birinə görə, öz vəzifələrini icra edərkən məsələn, ad gününü və ya Yeni il münasibəti ilə hansısa qiymətli hədiyyəni qəbul edə bilməzsən. Bundan əlavə, "qiymətli hədiyyə"nin dəyərinin 35 avrodan yuxarı ola bilməməsi birmənalı göstərilmişdir. Hədiyyənin məbləği bundan çox olarsa, hədiyyədən imtina edilməli və ya rəhbərliyi məlumatlandırmalısan.

Azərbaycan Respublikasının qanunvericiliyinə görə dövlət qulluqçusu xidməti vəzifələrinin icrası müqabilində mükafat qismində verilən və ya bu cür mükafat təəssüratı yaradan hədiyyələri özü və ya digər şəxslər üçün tələb edə və ya qəbul edə bilməz. Bu qayda qonaqpərvərliklə bağlı və dəyəri əlli beş manatdan yuxarı olan hədiyyələrin təqdim olunduğu hallara şamil edilmir.

Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramında korrupsiya hüquqpozmaları ilə əlaqədar cinayət təqibinin Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya qarşı mübarizə Baş idarəsi tərəfindən həyata keçirilməsi qərara alınmışdır. Bu idarə korrupsiya ilə bağlı cinayətlər üzrə həyata keçirilən ibtidai istintaq sahəsində ixtisaslaşmış qurumdur və Baş Prokurora tabedir. Korrupsiya ilə effektiv mübarizə aparılmasına görə bu idarənin qarşısında çox mühüm vəzifələr qoyulmuşdur və ona geniş səlahiyyətlər verilmişdir.

Dövlət Proqramına görə korrupsiyaya qarşı mübarizə aparan orqanlara ictimai etimadın olması əsas amillərdəndir. Buna görə də həmin orqanların işi mümkün qədər şəffaf qurulmalı və bu orqanlar həyata keçirdikləri tədbirlər haqqında ictimaiyyəti məlumatlandırmalı, öz fəaliyyəti barədə dövri məruzələr tərtib etməlidirlər.

Korrupsiyanın çiçəklənməsinə şərait yaradan amillərdən biri də qohumluq əlaqələridir. Vəzifəli şəxslərin yaxın qohumları, seçkili vəzifələr və qanunvericiliklə nəzərdə tutulan digər hallar istisna olmaqla, bilavasitə onun tabeliyində olan heç bir vəzifə tuta bilməzlər. Belə bir müddəa "Korrupsiyaya qarşı mübarizə haqqında" Qanunun 7-ci maddəsində öz əksini tapmışdır.

Hal-hazırda korrupsiya ilə mübarizə beynəlxalq xarakter almışdır. Dövlətlərarası iqtisadi əlaqələrin inkişafı, regional və dünya iqtisadi bazarında müstəqil təsərrüfat subyekti kimi dövlətlərin iştirak etmək hüququ korrupsiyaya qarşı mübarizənin beynəlxalq təşkilatlar səviyyəsində aparılması zərurətini yaradır.

Azərbaycan Respublikası Prezidenti 2022-ci ilin 4 aprel tarixində "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022?2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında tarixi Sərəncam imzalamışdır. Həmin Sərəncamla Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022?2026-cı illər üçün Milli Fəaliyyət Planı təsdiq edilmişdir. Fəaliyyət Planının əsas və vacib müddəalarından biri odur ki, ümumi inkişafa və təhlükəsizliyə mənfi təsir göstərən korrupsiya qanunun aliliyinə və sosial ədalətə ciddi təhlükə yaradır, iqtisadi və sosial inkişafı ləngidir, əlverişli biznes mühitinin yaranmasına mane olur.

Korrupsiyaya qarşı mübarizənin davamlı olması, korrupsiyanın qarşısının alınması ilə bağlı müasir çağırışlara uyğun effektiv mexanizmlərin tətbiq edilməsi xüsusi əhəmiyyət kəsb edir. Buna görə də həm beynəlxalq, həm də milli səviyyədə korrupsiyaya qarşı mübarizədə yeni təşəbbüslərin irəli sürülməsi zəruridir və bu sahədə icra edilən tədbirlər korrupsiyaya şərait yaradan halların və korrupsiya hüquqpozmalarının səbəblərinin, növlərinin və nəticələrinin qarşısının alınmasına yönəldilməlidir.

***İsmayıl SƏRXANBƏYOV***
***Naxçıvan Hərbi prokurorluğunun böyük müstəntiqi, ədliyyə baş leytenantı***

# Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzi bağlandı: Moskva hansı mexanizmləri seçəcək?




***Dünən Ağdam rayonu ərazisində yerləşən Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin təntənəli bağlanış mərasimi keçirilib.***

Qarabağda yekun qələbə ilə başa çatmış antiterror tədbirlərindən sonra Prezident İlham Əliyev xüsusi fərman imzalayıb və buna əsasən, türkiyəli zabitlərin Azərbaycanda olma müddəti bir il uzadılıb. Deməli, mərkəzin bağlanmasına baxmayaraq, türkiyəli zabitlərin Azərbaycanda qalması hüquqi baxımdan daha öncədən təsbit olunmuş hesab olunur.

Bununla yanaşı, Türkiyə və Azərbaycan 2021-ci ildə imzalanmış Şuşa Bəyannaməsi də daxil olmaqla, bu cür tənzimləmələr üçün kifayət qədər hüquqi-müqavilə əsaslarına sahibdirlər. Mərkəzin bağlanmasından sonra rus zabitlər isə öz vətənlərinə qayıdacaqlar.

Fəaliyyətdə olduğu müddət ərzində mərkəzin işi müzakirə mövzusuna çevrilib desək yanılmarıq. Vaxtilə mətbuatda mərkəzin Pilotsuz Uçuş Aparatlarının erməni terrorçularının mövqelərini izlədiyi və məlumatları analiz etdiyi barədə nəşrlər olub. Habelə mərkəzin rəsmi olaraq bağlanmasının Cənubi Qafqazda Rusiya-Türkiyə hərbi-texniki və bəlkə də kiber-texnoloji əməkdaşlığının sona çatmasının demək olub-olmadığını söyləmək çətindir.

Prezident İlham Əliyevin Moskvadan sonrakı xüsusi bəyanatları belə təəssürat yaradır ki, Rusiya-Azərbaycan əməkdaşlığı regiondankənar amil əhəmiyyətini qazanır. Bu, təbii ki, Türkiyənin, eləcə də İranın maraqlarına qarşı yönəlmir, əksinə regional maraqları birləşdirməyə xidmət edir. İlham Əliyevin çıxışından sonra Rusiya Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Mariya Zaxarova demək olar açıq mətnlə bildirib ki, Ermənistan regionda Qərb üçün plasdarma çevrilməməlidir.

İlham Əliyev Türkiyənin Anadolu Agentliyinə müsahibəsində deyib: "Əgər görsək ki, Ermənistanda bizə qarşı hər hansı bir təhdid yaranır, biz o təhdidi məhv etməliyik. Bu, bizim legitim hüququmuzdur. Ancaq bu təhdid olmasa, bizim başqa fikrimiz yoxdur". Əslində Rusiya XİN-in rəsmi nümayəndəsi açıq şəkildə başa salır ki, Ermənistandakı Qərb plasdarmını neytrallaşdırmaq üçün Azərbaycana mane olmayacaqlar.

Prinsipcə, Rusiya qoşunlarının Qarabağdan çıxarılması da demək olar eyni mənaya malikdir: Rusiyanın varlığı yoxdur, problem Azərbaycanın ərazi bütövlüyünə qarşı təhdiddən ehtiyatlı olmasıdır və Bakı preventiv addımlara gedir.

Prezident İlham Əliyevin Aİ müşahidəçilərinin sərhəddə ilk atəşlərdə qaçacaqları ilə bağlı xəbərdarlığı Ermənistana təxribatlardan çəkinmək üçün ciddi mesaj idi. Əgər Ermənistan Fransanın təhriki ilə əməliyyatlara başlasa, Rusiya məsələyə müdaxilə etməli olacaq və Ermənistan-Azərbaycan kardinal barışığı baş tutmayacaq. Görünür, Türkiyə Prezidentinin Ermənistanla münasibətlərin normallaşması pəncərəsinin bağlana biləcəyi ilə bağlı çoxmənalı eyhamı da bu ssenariyə daxildir.

Rusiya-Ukrayna müharibəsində Moskvanın üstünlüyü mövcuddur. Hətta rəsmi Kiyev də bunu artıq etiraf edir. Qərbin resursları yetərli deyil. Belə bir kritik vəziyyətdə Cənubi Qafqazın periferik əhəmiyyəti var. Qərb risklərin idarə edilməsinin bütün real alətlərini Şərqi Avropaya yönəldir. Bu isə Rusiyanın Qafqazı yenidən dəyərləndirməsi deməkdir. Moskva hansı mexanizmləri seçəcək? Əsas məsələ budur.

***Firuz BAĞIROV***✍

# Hindistanın Bakıya cavabı və ciddi səhvi

**Hindistan Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Ermənistana silah tədarükü ilə bağlı Bakının haqlı narazılığı barədə suala cavab verərək bildirib ki, Dehli həm İrəvan, həm də Bakı ilə yaxşı münasibətlərə sahibdir, lakin eyni zamanda müdafiə təyinatlı məhsullarının ixracını təşviq etməyə çalışır.**

Başqa cür desək, Hindistan rəsmisi Hindistanın Ermənistan və Azərbaycanla dostluğu ilə yanaşı, hərbi sənaye biznesi haqqında da düşündüyünü nəzərdə tutur. Əlbəttə, rəsmi Bakı yaxşı bilir ki, Hindistan və Ermənistan arasında hərbi-texniki əlaqələr Hindistan üçün təkcə biznes deyil, həm də istənilən digər iri hərbi istehsal həyata keçirən ölkə üçün olduğu kimi xarici siyasət və geosiyasətdir.

Hindistan geosiyasi ambisiyaları artan dövlətdir və Qafqaz da daxil olmaqla, rolunu genişləndirməyə çalışır. Təbii olaraq burada əsas olan odur ki, Qafqaz Şərqdən Qərbə əsas kommunikasiya zonasıdır, Hindistan bu kommunikasiyaların bölünməsində və nəzarətində rol almaq üçün Ermənistanda rol oynamağa çalışır. Ermənistan isə bu vəziyyətdən istifadə etməyə və əslində Azərbaycana rəqib olan aktorların dairəsini şaxələndirməyə, yenidən silahlanmağa, habelə Rusiyadan uzaqlaşmağa çalışır.

Bu istiqamətdə baş verənlər yalnız Hindistan silahlarının tədarükü ilə bağlı deyil. Təbii ki, Ermənistanın silahlandırılması Azərbaycan üçün ciddi risklər yaradır. Şübhəsiz ki, rəsmi Bakı dəfələrlə bildirdiyi kimi, istənilən vasitə ilə Ermənistanın hətta 1 ədəd tüfəng və ya durbin almasına mane olacaq. Yaxın gələcəkdə vəziyyət Azərbaycan üçün hərbi balans baxımından ciddi problemlər yarada biləcək formada olmasa da, təxribat risklərini artıracaq və bu da növbəti toqquşmalara səbəb ola bilər.



Ermənistanın Rusiyadan uzaqlaşması fonunda Hindistandan silah tədarükü və İranın da bu prosesdə iştirakı bir sıra iqtisadi layihələrə də mane ola bilər. Nəzərə almaq lazımdır ki, Rusiya və İran Şimal-Cənub dəhlizi və ya Sankt-Peterburqdan Mumbaya qədər liman marşrutu məsələsində maraqlıdır. Bu baxımdan, qlobal əhəmiyyətli iqtisadi layihələrə və regional təhlükəsizliyə açıq təhdid formalaşdırmaq cəhdlərinin qarşısı alınmalıdır. Yəni Hindistan kimi ölkə olduqca soyuqqanlı düşünməyə məcburdur. Xüsusilə müdafiə təyinatlı məhsullarının ixracı məsələlərini qlobal əhəmiyyətli layihələri icra etməklə idarə edə biləcəyini düşünmək ciddi səhv olardı.

***Aqil MƏMMƏDOV***✍

# Putin və Zelenski Bakıda görüşə bilər?



**Azərbaycan Prezidenti İlham Əliyev ukraynalı həmkarı Volodimir Zelenskini noyabrda Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) dəvət edib.**

Bu barədə Azərbaycanın Ukraynadakı səfiri Seymur Mərdəliyev "X" sosial şəbəkəsindəki hesabında məlumat verib. O qeyd edib ki, Kiyevdə Ukraynanın xarici işlər nazirinin birinci müavini Andrey Sibiqa ilə görüşüb: "Azərbaycan Prezidenti İlham Əliyevin Bakıda keçiriləcək COP29-da iştirak etmək üçün Ukrayna Prezidenti Volodimir Zelenskiyə ünvanladığı dəvət məktubunu təqdim etmək şərəfinə nail oldum".

Qeyd edək ki, dəvət Prezidentin Moskva səfərindən və Putinlə danışıqlarından dərhal sonra elan edilib. Zelenskinin dəvət olunması normaldır, əslində protokol qaydasıdır. Maraqlı və diqqətəlayiq olan budur ki, bu barədə Moskva səfərindən dərhal sonra danışılır.

Təbii ki, Prezident İlham Əliyev səfərdən razı qalıb və atılan addımlar müstəqil siyasətin təzahürüdür. Habelə mümkündür ki, rəsmi Bakı ən azından platforma statusunda Ukrayna və Rusiya arasında vasitəçi olmaq məsələsini müzakirə edir? Böyük ehtimalla, Putin də dəvət ediləcək.

Ötən gün Zelenski bəyan edib ki, iyunda İsveçrədə keçiriləcək Sülh Konfransı zamanı sülh planı hazırlanarsa, sonra bu, "düşmən"ə veriləcək və planı Moskva ilə müzakirə etməyin mümkünlüyü onun reaksiyasından asılı olacaq. Bu, təsadüfi bəyanat deyil, çünki Zelenski əvvəllər heç vaxt Rusiya ilə söhbəti mümkün hesab etmirdi. Əlbəttə ki, dönüş haqqında danışmaq düzgün deyil, lakin tonların dəyişməsi diqqətəlayiqdir.

Hər halda Azərbaycan xüsusilə Rusiya-Türkiyə münasibətlərindəki soyuqluğu nəzərə alaraq, bu gedişata daxil olmaq istəyə bilər. Xatırladaq ki, Azərbaycan məlum Rusiya-Türkiyə gərginliyi zamanı da uğurlu vasitəçi olaraq çıxış edib və tərəfləri barışdıra bilib.

Bu baxımdan, indiki halda nəsə demək çətin olsa da, şübhə yoxdur ki, rəsmi Bakı müstəqil hərbi-siyasi qərarlar verməyi və regional subyektivlik qurmağı çoxdan bacarır, buna görə də hətta müxtəlif siyasi ssenarilər məsələsində böyük oyun sahəsinə sahibdir.

Diqqətəlayiqdir ki, Zelenskinin mart ayında Azərbaycan və Ermənistana gözlənilən səfəri ləğv edilmişdi. Görünür, səfər Rusiya ilə razılaşmaların əldə olunmasına qədər təxirə salınıb və indi dünyanı maraqlandıran görüş Bakıda baş tuta bilər.

***Asif CƏFƏROV***✍
***Ordu.az***

# Pilotlar TULGAR ilə Mifologiyanın Gücünü Hiss Edəcəklər




***"Tulgar" sistemi sabit qanadlı platformalar üçün ASELSAN daxilində dizayn edilmiş visör (kamerada linzanın baxış sahəsini göstərən, görüntünün çərçivəyə salınmasında və fokuslanmasında istifadə edilən cihaz - red.) əks etdirən dəbilqəyə quraşdırılmış ekran sistemidir.***

Sistemdə pilotun və təyyarənin imkanları və missiya sahəsi haqqında məlumatlılığını artırmaq üçün rəqəmsal gecə görmə, rəngli ekran və dəqiq baş izləmə texnologiyaları var.

Visör əks etdirən dəbilqəyə quraşdırılmış ekran sistemi aviasiya sahəsində böyük bir transformasiya və irəliləyiş təmin edən, bir çox fərqli qaydaların bir araya gəldiyi və mükəmməl harmoniya içində işlədiyi sistemlərdir. Bu sistemlər pilotların uçuş zamanı ehtiyac duyduqları kritik məlumatı dərhal vizuallaşdırır, uçuş təhlükəsizliyini artırır və pilotlara öz tapşırıqlarına daha asan diqqət yetirməyə imkan verir.

"Tulgar" Dəbilqəyə Quraşdırılmış Ekran Sisteminin əsas məqsədi pilotların situasiya məlumatlılığını artırmaq və ətraflarında baş verənləri daha yaxşı başa düşməyə imkan yaratmaqdır. Bu yolla pilotlar öz vəzifələrini daha effektiv yerinə yetirə bilərlər. Bu sistemlər ilk dəfə təxminən 50 il əvvəl ortaya çıxsa da, bu gün oxşar sistemləri inkişaf etdirə bilən ölkələrin sayı çox məhduddur.

***Sistem Alt Bölmələri:***
- *Baş Bölməsi*
- *Radioelektron Bölməsi*
- *Baş İzləmə Modulu*

Dəbilqə quraşdırılmış idarəetmə sistemləri ümumiyyətlə üç əsas komponentdən ibarət olur. Bunlar Baş Bölməsi, Radioelektron Bölməsi və baş izləmə sistemidir. Baş Bölməsi əsas uçuş dəbilqəsi funksiyalarını yerinə yetirərkən, Radioelektron Bölməsi uçuş və silah sistemləri haqqında məlumat verir və sensorlardan gələn videoları pilota ötürür. Baş izləmə sistemi isə pilotun nəzər nöqtəsinə yönəlmiş silah və sensor sistemlərinin effektivliyini artırır.

Dəbilqəyə inteqrasiya olunmuş idarəetmə sistemləri aviasiya sənayesindəki texnoloji inkişaflara bir nümunədir və gələcəkdə bu sahədə daha da irəliləyişlər gözlənilir. Bu sistemlər pilotların təhlükəsizliyində və vəzifələrini daha səmərəli yerinə yetirmələrində mühüm rol oynayır.

"Tulgar" Dəbilqəyə Quraşdırılmış Ekran Sistemi Türkiyənin milli müdafiə sənayesinin mühüm layihələrindən biri olaraq inkişaf etdirilir. Xaricdən tədarük edilməsi halında ortaya çıxa biləcək aşağı performanslı məhsulların verilməsi, yeniləmə imkanlarının məhdud olması və ya yüksək qiymətlər tələb edilməsi kimi problemləri önləmək məqsədilə milli olaraq inkişaf etdirilməsi böyük əhəmiyyət kəsb edir.

Türkiyə Müdafiə Sənayesi Komitəsinin (MSK) həyata keçirdiyi Milli Döyüş Təyyarəsi layihəsi çərçivəsində "Tulgar" Dəbilqəyə Quraşdırılmış Ekran Sisteminin Türkiyənin ilk yerli döyüş təyyarəsi olan "Kaan"da istifadə edilməsi planlaşdırılır. Pilotlara erqonomik bir həll təklif etmək üçün dəbilqə bölməsi yüngül kompozit materiallardan və istifadəçiyə uyğun olaraq hazırlanmış daxili dəbilqədən ibarətdir. Aktiv və passiv səs-küyü ləğv etmə imkanları ilə platformadan və digər mənbələrdən pilota çatan səs-küyün qarşısı alınır.

***Ümumi Xüsusiyyətlər:***
- *Visör Əks Etdirən Rəngli Ekran*
- *40 Dərəcə Baxış Sahəsi İnteqrasiya Edilmiş Rəqəmsal Gecəgörmə*
- *Hibrid (Ətalətli və Optik) Baş İzləmə İmkanı*

Sistem binokulyar və güzgülü visör kimi dizayn edilib, rəngli ekran və rəqəmsal gecəgörmə texnologiyalarını əhatə edəcək. Bu sayədə simvolologiya məlumatlarında rəngə görə xüsusi qruplaşmalar edilə biləcək və pilotların daha effektiv şəkildə məlumat alması təmin ediləcək. Bundan əlavə, hibrid baş izləmə sistemindən istifadə olunacaq və daxili dəbilqə pilotun baş quruluşuna uyğun olaraq xüsusi olaraq hazırlanacaq. Visör, həmçinin oksigen maskası və üz forması ilə uyğunluq baxımından pilot üçün fərdiləşdiriləcək.

Qulaqlıqlarda aktiv səs-küyün qarşısının alınması texnologiyası olacaq və üçölçülü səs stereo olaraq ötürüləcək, bu da pilotun məlumatlılığını artıracaq. Elektro-optik sistemlərdən əldə edilən 360 dərəcə təsvir yüksək dəqiqlikli görmə xətti məlumatı ilə visördə əks olunacaq və pilotlara sanki təyyarənin gövdəsi yoxmuş kimi işləmə hissi verəcək. Bu sayədə pilotların uçuş zamanı vəzifələrini daha rahat və təhlükəsiz şəkildə yerinə yetirmələri hədəflənir.

Sabit qanadlı platformalar üçün uyğun olan "Tulgar" Sistemi davamlı dizaynı sayəsində sərt ekoloji şəraitdə istifadəyə hazırdır.

***Ümumi Xüsusiyyətlər***
- *Yüngül dəbilqə bölməsi*
- *Rəngli ekran*
- *Pilotun başına uyğun formalaşdırılmış daxili dəbilqə quruluşu*
- *Rəqəmsal gecə görmə*
- *Hibrid baş izləmə sistemi*
- *Aktiv səs-küy önləmə*
- *Eynəklə istifadəyə uyğunluq*
- *3D səs uyğunluğu*
- *40°(Y)-32°(D) baxış sahəsi*

***İnterfeyslər***
- *ARINC-818-2 Video İnterfeysi*
- *"Display Port" Rəqəmsal Video I/O İnterfeysi*
- *Seriyalı İnterfeyslər (RS-232/RS-485/RS-422)*
- *Fərdi I/O İnterfeysi*
- *MIL-STD-1553 İnterfeysi*

***Fiziki Xüsusiyyətlər***
- *Baş Bölməsinin Çəkisi: < 2,1 kq (oksigen maskası daxil olmaqla)*
- *Radioelektron Bölməsinin Çəkisi: < 5 kq*

***Texniki Xüsusiyyətlər***
- *Enerji Daxil Olması: 28 VDC (Nominal)*
- *Enerji Sərfi: 140 W (Nominal)/190 W (Maksimum)*

***Ətraf Mühit Şəraitləri***
- *İşləmə Temperaturu (Radioelektron Bölməsi): -40°C/+70°C (Ventilyasiya Soyutmalı), -55°C/+95°C (İqlimləşdirilmiş Hava Soyutmalı)*
- *Saxlama Temperaturu (Radioelektron Bölməsi): -55°C / +95°C*

***Kvalifikasiyalar***
- *MIL-STD-810G W/"Change 1"*
- *MIL-STD-461G*
- *MIL-STD-1472G*
- *DO-254*
- *DO-178C*

# ASELSAN-dan REM sistemi: EJDERHA nəyə qadirdir?

**ASELSAN-ın məhsulu olan "Ejderha" Radioelektron Mübarizə (REM) sisteminin yeni istifadə görüntüləri paylaşılıb.**

ASELSAN Baş direktoru Ahmet Akyol SAHA MBA Yüksək Səviyyəli Bürokrat və Sektor Liderləri Təlimi çərçivəsində etdiyi təqdimatda "Ejderha"nın son sınaq görüntülərini paylaşıb.

ASELSAN-ın məhsulu olan REM sistemi "Ejderha" ilk dəfə IDEF 2023 sərgisində nümayiş etdirilib. Türkiyə Quru Qoşunları Komandanlığı və təhlükəsizlik qüvvələri üçün hazırlanmış "Ejderha" elektromaqnit siqnalları ilə elektron sxemləri olan istənilən mülki/hərbi vasitəni uzaqdan dayandıra biləcək.

ASELSAN-ın "Ejderha"sı elektromaqnit siqnalları ilə mülki və hərbi vasitələri zərərsizləşdirir

ASELSAN-ın REM sistemi "Ejderha" elektromaqnit siqnalları ilə dron, sürü Pilotsuz Uçuş Aparatı (PUA), qanadlı raket, helikopter, PUA kimi mülki və hərbi vasitələri zərərsizləşdirə biləcək.

**Tək zərbə ilə yüksək güclü elektromaqnit şüalanma xüsusiyyəti**

ASELSAN tərəfindən istehsal edilən "Ejderha" xüsusi olaraq hazırlanmış istiqamətləndirici antenna/reflektor dəsti istifadə edilərək, bir impuls və ya bir sıra impulslar vasitəsilə məhdud müddətə yüksək güclü elektromaqnit (EM) şüalanma yaya bilər.

Yüksək Güclü Mikrodalğa qaynaqları tərəfindən istehsal olunan elektromaqnit enerjisi hədəf alınan elektron cihazların işləməsinin qarşısını almaq, onların nasazlığına səbəb olmaq və ya onları zədələmək və qeyri-işlək vəziyyətə gətirmək üçün istifadə olunur.

**Elektromaqnit siqnalları ilə hava hədəflərini uzaqdan dayandıra bilir**

"Ejderha" elektromaqnit siqnalları ilə taktiki sahədə və obyektin giriş-çıxış sahələrində təhdid kimi təsnif edilə bilən elektron sxemləri ehtiva edən hər cür mülki/hərbi vasitələri və hava hədəflərini uzaqdan dayandıra bilir.

**İnsanlı və insansız komanda**

"Ejderha" yeni nəsil texnologiyaları ilə konvoy mühafizə/yerləşdirmə fəaliyyətləri üçün fərqli həll yolu yaradır. Taktiki təkərli zirehli/tırtıllı vasitələrə inteqrasiya oluna bilən sistem həm



insanlı, həm də insansız (uzaqdan idarəetmə ilə) idarə oluna bilir. Beləliklə, sahə şəraitində zəngin istifadə ssenarisi təqdim olunur.

**Əldəqayırma partlayıcı qurğu istifadəsinin qarşısını alacaq**

Bu, terror təşkilatlarının tez-tez istifadə etdiyi əldəqayırma partlayıcı qurğuların, PUA-ların və ya radioelektron sistemlərin istifadəsinə zərbə vuracaq.

***Dəyanət AĞALARLI✍***
***Ordu.az***

HƏRBİ AND

Azərbaycan Respublikasına xidmətimlə fəxr edirəm!

№ 15 (1024) 03 may 2024-cü il, Həftəlik ictimai-siyasi qəzet Qiymәti : 50 qəpik

# Əsgər dostluğu əbədidir

**İnsan həyatında bir sıra amilin keçici olduğu aydın məsələdir. Zaman keçər, nələrsə yaxşıya doğru, nələrsə əksinə dəyişə bilər. Əbədi olan ancaq insanlar arasında sıx bağlardır, əlaqələrdir. Bunlardan biri də həyatın ən gözəl anlamı olan dostluqdur. Dostluq həm də güvən, sülh, xoşbəxtlikdir. Bir-birini anlamaq, paylaşmaqdır, ən çətin zamanlarda belə bir-birinə dəstək olmaqdır. Xoş məqamlarını da, pis məqamlarını da birlikdə yaşamaqdır. Bunlara əsaslanaraq demək olar ki, ”dost” sözü çəkinmədən etibar edə biləcəyiniz, birlikdə səmərəli vaxt keçirə biləcəyiniz, qeyd-şərtsiz sevə biləcəyiniz çox xüsusi bir insandır.**

Müharibə igidliyi, ehtiyac dostluğu sınağa çəkər. Bu deyimin hər iki hissəsi bizə tanışdır. Azərbaycan Ordusunun şəxsi heyəti bu iki məfhumu yaxşı bilir. Aprel və Tovuz döyüşlərində, 44 günlük Vətən müharibəsi və ”Qisas” əməliyyatı, ordumuzun 2023-cü ilin sentyabrında keçirdiyi antiterror tədbirlərində igidlərimiz yüksək vətənpərvərlik, peşəkarlıq və əzmkarlıq nümayiş etdirdilər. Hərbi qulluqçularımızın hansı gücə malik olduğunu bütün dünyaya göstərdilər. Qazanılan Zəfərin səbəbləri çox olsa da, bunlardan biri də hərbçilərimizin dostluq, yoldaşlıq, birlik hisslərini yüksək səviyyədə yaşatmasıdır. Çiyin-çiyinə vuruşan mərd oğullarımız bir-birini qorumağa, silah yoldaşı üçün gözünü qırpmadan canından keçməyə, lazım olduqda döyüş meydanından yaralıları təxliyə etməyə və ilkin tibbi yardım göstərməyə hazır idilər. Məhz bu hisslərdir əsl hərbçi dostluğu! Əsgər dostluğu həyatın boyu qazandığın digər dostluqlardan çox seçilir. Daha möhkəm, daha uzunömürlü olur. Son nəfəsəcən yaşadılan dostluq mənəviyyatın bütövlüyüdür. Daha doğrusu, əsgər dostluğu, son damcı qanadək əbədi olur.

”N” hərbi hissəsində baş leytenant Rəhim Rəhimov digər əsgərlərə nümunə göstərdiyi iki əsgər haqqında danışdı. Onunla dostluqdan, yoldaşlıqdan söhbətləşərək, insan həyatında dost amilinin əhəmiyyətini müzakirə etdik.



- ”Sözsüz ki, dostluq qura bildiyimiz insan, ilk növbədə, bütün xüsusiyyətləri ilə bizə uyğun olmalıdır. Əgər iki insan dostdursa, demək ki, aralarında sıx güvən və etibarlılıq mövcuddur. Bunun üçün bir-birini yaxından tanımaq şərtdir. Hərbi xidmət zamanı şəxsi heyət daha sıx əlaqədə olur, hər gün bir-biri ilə sırada durur, yemək yeyir, asudə vaxtlarını səmərəli keçirir. Bu səbəbdən də onların dost tapması nəinki daha tez, həm də yoldaşlığı daha möhkəm olur. Hər kəs bilir ki, məhz əsgər dostluğu ən möhkəm dost əlaqələrindən biridir. Tərxis olunan əsgərlər bir-birini yaddan çıxarmır, dostunun həyatı ilə maraqlanır, vaxtaşırı görüşür və hərbi xidmətlərini yada salırlar. Bunun üçün hərbi xidmətdə belə bir deyim var: ”Əsgər dostluğu əbədidir!”.

Gənc zabit dost seçiminin çox vacib olduğunu bildirərək, əsil dostluğun əyani sübutu olaraq həmin əsgərlərlə tanış etdi.

Hərbi xidmətə Xızı rayonundan çağırılan əsgər Xudayar Ağarzayevə və Bakı şəhərindən çağırılan əsgər Rəsul Əmrah ilə tanış olduq. Onların arasında mehribanlıq və səmimiyyət ilk baxışdan hiss olunurdu. Kənardan onların münasibətlərini seyr etmək insana xoş hisslər aşılayır. Xudayar özü də bu barədə fikirlərini bizimlə bölüşdü: ”İnsanın yanında gerçək dostu olduqda gördüyü iş də, yaşadığı həyat da ona daha rahat gəlir. Hərbi xidmətə gəldikdə hər kəs uyğunlaşma dövrü keçir. Bu, bəzi insanlara çətin gələ bilər. Ancaq mən bu mərhələni sanki hiss etmədən keçdim. Buna həm komandirlərimizin bizə göstərdiyi nəzakət, aşıladığı hərbi biliklər, həm də ilk günlərdən yaxşı dosta sahiblənməyim oldu. Rəsul ilə çoxlu ortaq maraqlarımız var. Hər ikimizin idman zövqü eynidir. Hər ikimiz ”Qarabağ” futbol klubunun azarkeşiyik. Komandirlərimizdən eşidirik ki, ”əsgər dostluğu” deyilən anlayış var və bu möhkəm, pozulmaz və əbədi dostluq anlamına gəlir. Bəli, mən də, Rəsul da bu fikirlə razıyıq”, - deyə Xudayar bildirdi.

- Bir-birinə hər zaman köməklik etmək dostluğun əsas prinsiplərindəndir. Mən də hərbi xidmətə gəldiyim ilk gündən daha təcrübəli əsgər yoldaşlarımdan köməklik almışam və indi çalışıram ki, digər yoldaşlarımıza yardımçı olum. Bir işi yaxşı bilmək bəs eləmir, bacarmayanın da əlindən tutmalısan. Bu, şərtdir, xüsusən də, dost dediyin adamlara. Hərbi xidmətdə biz hamımız dostuq, qardaşıq. Ən yaxın dostum Xudayardır. Əlbəttə ki, burada qazandığımız dostluq əbədi olacaqdır, mülki həyatda da davam edəcəkdir. Çox sevincliyəm ki, Xudayar kimi dost qazandım. Onu da qeyd etmək istəyirəm ki, biz qalib Azərbaycan Ordusunun əsgərləriyik. Bizim əsas amalımız Vətəni qorumaq, torpaqlarımızın keşiyində dayanmaqdır, - Rəsul dedi.

Ordu sıralarında belə dostlarla tanış olduğumuz üçün sevincliyik. İnanırıq ki, əsgərlərimizin dostluğu bütün həyatları boyu davam edəcəkdir.

***İbrahim MƏMMƏDBƏYOV***